QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 125 (5845) **13 iyul** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Əsrlərə bərabər 50 il!

*Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişindən 50 il ötür*



3

“Bu gün dinamik inkişaf edən müasir müstəqil Azərbaycan Heydər Əliyevin yadigarı və şah əsəridir”



4

Əli Əhmədov ABŞ-da səfərdədir



4

“Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, müstəqil Azərbaycan dövləti də olmayacaqdı”



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 iyul 2019-cu il

# ABŞ-ın müstəqillik günü: İlham Əliyevin məktubunun əsas məqamları




***İyulun 4-də Amerika Birləşmiş Ştatlarının müstəqilliyinin 243-cü ili tamam olub. Bununla bağlı son 70 ildə ilk dəfə olaraq ABŞ Prezidenti meydandan xalqa müraciət edib, hərbi parad keçirilib. Dünyanın müxtəlif ölkələrinin başçıları da ABŞ rəhbərliyinə təbrik məktubları ünvanlayıblar. Azərbaycan Prezidenti İlham Əliyevin Prezident Donald Trampa ünvanladığı məktub böyük marağa səbəb olub.***

Bundan öncə Azərbaycanın milli bayramı münasibətilə ABŞ Prezidenti də İlham Əliyevə məktub göndərmişdi. Ekspertlər Azərbaycanın dövlət başçısının hansı məqamları ifadə edəcəyini maraqla gözləyirdilər. Azərbaycan rəhbərinin məktubunda ifadə edilən tezislər bu suala tam dolğun cavab verməyə imkan yaradır. Eyni zamanda, İlham Əliyevin məktubunun fonunda Ermənistanın baş naziri Nikol Paşinyanın D.Trampı təbriki süni görünür. Erməni lider, faktiki olaraq, heç bir konkret faktdan bəhs edə bilmir. Ümumi gəlişigözəl fikirlər söyləyir ki, onların arxasında konkret bir məna dayanmır. Bu fikirlərin prizmasından D.Trampa Prezident İlham Əliyevin ünvanladığı məktubun maraqlı məqamları üzərində geniş dayanmağa ehtiyac görürük.

## Real əməkdaşlıq imkanları: rəsmi Bakının tezisləri

ABŞ Prezidenti Donald Trampın İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə bağlı göndərdiyi məktubda əməkdaşlığa dair aydın fikirlərin öz ifadəsini tapması yaddan çıxmayıb. Amerika rəhbərliyi Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasəti dəstəklədiyini və xüsusilə, Avropada enerji təhlükəsizliyi məsələsinin həll edilməsində oynadığı rolu təqdir etdiyini vurğulamışdı. Bundan başqa, D.Tramp dövlət başçısı İlham Əliyevin beynəlxalq miqyaslı əməkdaşlıq təşəbbüslərini də dəstəklədiyini konkret tezislərlə ifadə etmişdi.

Bunlar ABŞ rəhbərliyinin Azərbaycan Prezidentinə böyük ümidlə yanaşdığını, onunla əməkdaşlığın qiymətli hesab edildiyini göstərirdi. ABŞ-ın müstəqillik günü münasibətilə Prezident İlham Əliyevin D.Trampa ünvanladığı təbrik məktubu müəyyən mənada qarşılıqlı əməkdaşlıq arzularının, xoş niyyətlərin, bütövlükdə regionda sülhün bərqərar olmasının əlamətlərindən biri kimi qəbul edilə bilər. İlham Əliyev də öz məktubunda konkret tezislərlə iki ölkə arasındakı münasibətləri dolğun ifadə edib. Məktubda vurğulanır: "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır".

Buradan görünür ki, Azərbaycanla Amerika arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. Bu isə Vaşinqtonun Cənubi Qafqazda Azərbaycanla münasibətlərə verdiyi önəmin əhəmiyyətini göstərir. Dövlət başçısı iki ölkə arasındakı əlaqələrə müsbət təsir edən faktorları ayrıca vurğulayaraq qeyd edib: "Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik. Təşəbbüscüsü olduğumuz və müvəffəqiyyətlə gerçəkləşdirdiyimiz Cənub Qaz Dəhlizi layihəsi isə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfədir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi bizim üçün çox əhəmiyyətlidir".

Belə məlum olur ki, Azərbaycanla ABŞ arasında əməkdaşlığın əsas istiqamətləri beynəlxalq təhlükəsizliyin təmin edilməsində ortaq fəaliyyət və enerji layihələri ilə sıx bağlıdır. Buraya təbii ki, nəqliyyat dəhlizləri də daxildir. Beynəlxalq təhlükəsizliyin təmini sahəsində Azərbaycanın dünyanın müxtəlif bölgələrində sülhyaratma əməliyyatlarında aktiv iştirakı xüsusi qeyd edilməlidir. Təcrübə göstərir ki, rəsmi Bakı məsələnin bu tərəfinə böyük diqqət yetirir. Bununla Azərbaycan rəhbərliyi sözün həqiqi mənasında sülh və barış tərəfdarı olduğunu, beynəlxalq hüquq normalarına böyük önəm verdiyini, demokratik birgəyaşayışın bütün dünyada bərqərar olmasına çalışdığını və cinayətlərə qarşı güzəştsiz mövqedə dayandığını nümayiş etdirmiş olur.

Bu sıraya, əlbəttə ki, Azərbaycanın terrorla mübarizəyə ciddi diqqət yetirdiyi də daxildir. Dünyanın istənilən regionunda terrora Azərbaycan "yox" deyir. Terrorla mübarizədə irəli sürülən təşəbbüsləri birmənalı dəstəkləyir və bu zaman tamamilə beynəlxalq hüquq normaları çərçivəsində problemlərin həll edilməsinə üstünlük verir.

Həmin kontekstdə Prezident İlham Əliyevin məktubda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivlərini konkret ifadə etməsi olduqca əhəmiyyətlidir. Dövlət başçısı məktubda yazır: "Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına əsasən ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli şəkildə həll olunmalıdır. Biz bu işdə ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın ardıcıl və qətiyyətli mövqeyinə və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik".

## Münaqişənin ədalətli həlli: beynəlxalq hüquq normaları və danışıqlar

Burada İlham Əliyev, faktiki olaraq, problemin həllinin əsas prinsipini və onun reallaşması mexanizmlərini dəqiq ifadə edib. Əvvəla, məsələ beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll edilməlidir. Bundan kənara çıxan heç bir addım ədalətli olmayacaq. Bu o deməkdir ki, rəsmi Bakı bu münaqişənin həllində yalnız beynəlxalq hüquq normalarını əsas hesab edir. Burada münaqişənin kiminsə xeyrinə deyil, ədalətli həlli məsələsi qoyulur. Bu, çox vacib bir məqamdır. Çünki əks tərəf əsassız olaraq Azərbaycanı süni yanaşmada ittiham etməyə çalışır və böhtanlar uydurur. İlham Əliyev isə erməni iftiralarının tam əsassız olduğunu göstərib.

Daha sonra dövlət başçısı münaqişənin həllinin konkret hüquqi müstəvisini də ifadə edir. Göstərir ki, burada BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə və Helsinki Yekun Aktının müddəalarına əsaslanaraq problemi yoluna qoymaq gərəkdir. Onun siyasi çərçivələrini isə Azərbaycanın ərazi bütövlüyünün təmini, danışıqlara üstünlük verilməsi və ədalətli yanaşma müəyyən edir.

Müasir beynəlxalq hüququn ruhuna və konkret işləmə mexanizmlərinə tam uyğun bir yanaşmadır. Əsl demokratik iradənin nümayişidir. Ümumiyyətlə, sivil dünyaya, demokratik birgəyaşayışın prinsiplərinə böyük hörmətin konkret təcəssümüdür. Çünki Dağlıq Qarabağın və ətrafındakı yeddi rayonun işğal olunmasına, bir milyondan çox azərbaycanlının doğma yurd-yuvasından didərgin düşməsinə baxmayaraq, rəsmi Bakı beynəlxalq hüquqa böyük inam və hörmətini saxlayır. Münaqişənin həlli üçün sivil dünyanın qəbul etdiyi yanaşmalardan istifadə edilməsinə üstünlük verir. Məhz buna görədir ki, İlham Əliyev dünyanın demokratik dövlətlərindən olan ABŞ-ın və onun başçısının həmin məsələdə daha aktiv mövqe tutmasının zəruriliyini vurğulayır.

Əlbəttə, dünyanın sivil ölkələrinin siyasi dairələri və ekspertləri İlham Əliyevin yüksək diplomatiya və siyasi mədəniyyət nümunəsi olan məktubuna kifayət qədər diqqətlə yanaşırlar. Onlar Azərbaycan rəhbərinin öz mövqeyində haqlı olduğunu qəbul edirlər. İlham Əliyevin D.Trampa ünvanladığı məktubla Ermənistanın baş naziri N.Paşinyanın yazdığı məktubda ifadə edilən fikirləri müqayisə etdikdə, Azərbaycan Prezidentinin nə dərəcədə yüksək diplomatik mədəniyyətə və peşəkarlığa malik olduğu aydın görünür. N.Paşinyan erməni liderlərinə xas olan yaltaqlıqla Amerikaya göstərdiyi yardıma görə minnətdarlığını bildirir. Əslində, Ermənistanın başqa dövlətlərlə əlaqələri özünə yardım dilənmək üzərində qurulub. Və məktubda N.Paşinyan, faktiki olaraq, bunu etiraf edir.

Baş nazir onu da deyir ki, bu cür dəstəklər Ermənistanın ayaq üstdə qalmasına yaxşı imkanlar yaradıb. Yəni bu kimi köməklər sayəsində Ermənistan təcavüzkar siyasətinə davam etməkdədir. Rəsmi İrəvanın öz siyasətinə qalsa, ölkə çoxdan batmışdı, çünki bütün qonşularına qarşı qərəzli mövqe tutan qondarma bir dövlətin müstəqil yaşaması imkansızdır.

Bunlardan sonra N.Paşinyan yalvarır ki, Ermənistandakı islahatlara Amerika kömək etsin, əks halda, rəsmi İrəvan bunun öhdəsindən gələ bilməz. Bu da Ermənistan hakimiyyətinin ikiüzlülüyünün növbəti təzahürüdür. Erməni hökuməti həm Rusiya ilə strateji müttəfiqliyindən dəm vurur, həm də ABŞ-dan islahatlara yardım umur.

Məktubun digər yerləri də ənənəvi erməni yalanları ilə doludur. Guya İrəvan münaqişənin sülh yolu ilə həllində maraqlıdır. Bunun üçün ABŞ-ın həmsədrliyinə böyük ümid edir. Eyni zamanda, ermənilərin ABŞ-ın təşəkkülündəki rolunu (qəribə iddiadır - red.) xatırladır.

Təbii ki, belə bir məktuba Vaşinqtonda ciddi baxa bilməzlər. Onun boş, mənasız söz yığınından ibarət olduğu aydın görünür. Bu səbəbdən də Vaşinqton son zamanlar Cənubi Qafqazda Azərbaycana konkret əməkdaşlıq təklifləri göndərir. Bu məqam Amerikanın regiona həqiqi münasibətinin məzmununu əks etdirir. Əlavə sözə ehtiyac qalır.

***Newtimes.az***

# “Bu gün dinamik inkişaf edən müasir müstəqil Azərbaycan Heydər Əliyevin yadigarı və şah əsəridir”

*Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş tədbir keçirilib*









**Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyi ilə bağlı iyulun 12-də Bakıda “Ulu Öndər” sənədli filminin və eyniadlı mahnının təqdimatına həsr olunan tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirin keçirilməsində məqsəd Azərbaycanda dövlət gənclər siyasətinin banisi olan Heydər Əliyevin ölkə gənclərinə göstərdiyi xüsusi diqqət və qayğını bir daha nümayiş etdirməkdir.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov tədbirdə çıxış edərək deyib ki, ulu öndər Heydər Əliyev bütün fəaliyyəti boyu öz qlobal düşüncə tərzi, müdrik və uzaqgörən siyasəti, nadir liderlik keyfiyyətləri, güclü milli iradəsi, xüsusi idarəçilik istedadı və rəhbərlik bacarığı ilə Ümummilli Lider səviyyəsinə yüksəlmiş və adı dünya tarixinə düşmüş görkəmli siyasi və dövlət xadimi, qüdrətli tarixi şəxsiyyət olmuşdur. Heydər Əliyev fitri istedadını, dərin zəkasını, bilik və bacarığını daim bütün azərbaycanlıların qəlbində yaşayan milli dövlətçilik ideyalarının gerçəkləşməsinə yönəltmiş, öz dövlətini və xalqını zamanın çətin sınaqlarından uğurla çıxarmış və dinamik inkişafını təmin etmiş BÖYÜK AZƏRBAYCANLI idi.

Vətənə məhəbbət, Azərbaycan xalqına və dövlətinə bağlılıq onu bütün həyatı boyu fərqləndirmişdir. İstər sovet hakimiyyəti dönəmində fəaliyyət göstərdiyi bütün sahələrdə, istərsə də müstəqillik dövründə Heydər Əliyev daim öz doğma Azərbaycanına ləyaqətlə xidmət etmiş, ölkəni geridə qalmış aqrar respublikadan güclü elmi-texniki potensiala malik, dinamik inkişaf edən sənaye dövlətinə çevirmiş, onun sosial-iqtisadi və mədəni tərəqqisini təmin etmiş, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması, milli elitanın formalaşdırılması, sağlam və intellektual gənc nəslin yetişdirilməsi istiqamətində misilsiz nailiyyətlər qazanmışdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində və inkişaf yoluna çıxarılmasında böyük xidmətlərindən danışan Əli Həsənov vurğulayıb ki, 1990-cı illərin əvvəllərində, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda vətəndaş qarşıdurmasının vüsət aldığı, etnik separatizmin baş qaldırdığı, torpaqlarımızın işğal olunduğu, ölkənin daxildən və xaricdən ciddi xaos və anarxiyaya sürükləndiyi, sosial-siyasi böhranın gündən-günə dərinləşdiyi bir vaxtda Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq Moskvadan geri qayıtmış, doğma Vətənində milli vətəndaş birliyinin yaradılması, dövlətçiliyin xilası və qorunması, ölkənin müstəqilliyinin bərpası istiqamətində əsl tarixi missiya həyata keçirmişdir. Prezidentin köməkçisi demişdir: “Nə qədər ağır və çətin olmasına baxmayaraq, Heydər Əliyevin 1990-1993-cü illərdəki fəaliyyəti - öz xalqının milli azadlıq və müstəqillik uğrundakı mübarizəsinə qoşulması və faktiki olaraq müstəqillik uğrunda mübarizə hərəkatına rəhbərlik etməsi dövrü Azərbaycan dövlətçiliyinin və milli tariximizin parlaq səhifələrini təşkil edir. 1993-cü ildə Azərbaycan dövlətçiliyinin çətin sınaqlar qarşısında dayandığı, məhvolma təhlükəsi ilə üzüzə qaldığı bir zamanda Heydər Əliyev xalqın çağırışına səs vermiş, onun tələbi və dəstəyi ilə yenidən ölkə rəhbərliyinə qayıtmış və xüsusi qurtuluş missiyası həyata keçirərək milli dövlətçiliyin XİLASKARINA çevrilmişdir”.

Sonrakı 10 il müddətində - 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasında Heydər Əliyevin rəhbərliyi ilə milli inkişafın əsaslarının yaradıldığını qeyd edən Prezidentin köməkçisi demişdir ki, daxili sabitlik, qanunçuluq, sosial ədalət, milli həmrəylik təmin olunmuş, Azərbaycanın daxili və xarici siyasətinin, dövlət idarəçiliyinin, yeni iqtisadi, siyasi və sosial münasibətlərin, demokratik dövlət quruculuğu və vətəndaş cəmiyyətinin əsasları formalaşdırılmış, bütün sahələr üzrə ölkənin inkişaf strategiyası hazırlanmış və həyata keçirilmişdir. Heydər Əliyev bu mərhələdə həlledici tarixi xidmət və uğurlu fəaliyyət göstərərək həm də müstəqil Azərbaycan dövlətinin BANİSİ və QURUCUSUNA çevrilmişdir. Hazırda Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti “öz doğma xalqına sədaqətli xidmətin və onun yolunda hər cür fədakarlığa hazır olmanın” əsl nümunəsinə çevrilmişdir.



“Ulu Öndərin öz dəyərini həmişə saxlayacaq uzaqgörən siyasəti, parlaq dühası və zəngin irsi Azərbaycanın uğurlu inkişafının təməlində dayanır”, - deyən Əli Həsənov diqqətə çatdırıb ki, bu gün dinamik inkişaf edən, region və dünya siyasətində, əksər transmilli layihələrdə öz dəst-xətti ilə seçilən müasir müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin yadigarı və şah əsəridir. Hər bir vətənsevər azərbaycanlının Ümummilli Liderin unudulmaz və əziz xatirəsi qarşısındakı müqəddəs borcu müstəqil və qüdrətli Azərbaycan dövlətini qorumaq və daha da inkişaf etdirməkdən ibarətdir.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışını bu sözlərlə bitirib: “Ulu öndər Heydər Əliyevin xilaskarlıq, quruculuq və liderlik missiyasının, milli dövlətçilik təfəkkürünün, peşəkar idarəçilik təcrübəsinin, zəngin siyasi irsinin və onun birbaşa xidmətləri sayəsində tamamlanaraq milli ideologiya səviyyəsinə qaldırılmış azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği və hərtərəfli inkişaf etdirilməsi Azərbaycan elitası qarşısında dayanan əsas vəzifələrdəndir”.

Sonra “Ulu Öndər” sənədli filminin və eyniadlı mahnının təqdimatı olub.

Gənclər və İdman Nazirliyinin təşəbbüsü və sifarişi ilə “MZ Prodakşn” tərəfindən istehsal olunmuş filmin ssenari müəllifi və rejissoru Əməkdar incəsənət xadimi, professor Rafiq Quliyev, redaktoru İradə Sultanova, prodüseri Üzlüfət Qasımovadır. Filmdə ümummilli lider Heydər Əliyevin 1969-cu ildən 2003-cü ilədək həyat və fəaliyyətinin müxtəlif dövrünü əhatə edən kadrlar yer alıb, Ulu Öndərin Azərbaycan gənclərinə verdiyi tövsiyələr səsləndirilib.

Azərbaycan Milli Konservatoriyasının tələbələrinin ifa etdikləri “Ulu Öndər” mahnısının musiqisi Konservatoriyanın rektoru, Xalq artisti, professor Siyavuş Kərimiyə, sözləri Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar mədəniyyət işçisi, professor Rafiq Yusifoğluya məxsusdur.

# “Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, müstəqil Azərbaycan dövləti də olmayacaqdı”



“14 iyul 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi tarixi hadisədir. Xalqımız bu tarixi hadisənin 50 illik yubeliyini qeyd edir”. SİA-nın verdiyi məlumata görə, bu fikri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov dünən parlamentin növbədənkənar sessiyasının son iclasında çıxışı zamanı deyib.

S.Novruzov bildirib ki, Ulu Öndər Heydər Əliyev xalqımız üçün misilsiz xidmətlər göstərib. Onun sözlərinə görə, üçrəngli bayrağımız Xalq Cümhuriyyətinin süqutu nəticəsində ensə də, XX-ci əsrin sonlarında Ulu Öndər Heydər Əliyev onu yenidən əbədi olaraq zirvələrə yüksəltdi . Bu gün dövlət bayrağımız bütün beynəlxalq təşkilatlarda dalğalanır. Millət vəkii qeyd edib ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, müstəqil Azərbaycan dövləti də olmayacaqdı.

Müstəqilliyin əvvəllərində Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran S.Novruzov Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib. YAP İcra katibinin müavini qeyd edib ki, Ulu Öndərin işləyib hazırladığı müasir, müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub. Onun sözlərinə görə, hazırda Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir və bu gün Azərbaycan dünyanın nüfuzlu dövlətləri sırasındadır.

# Bəhruz Quliyev: “1969-cu ilin 14 iyulu Azərbaycan tarixində yeni mərhələnin başlanğıcıdır”

*“50 il bundan əvvəl, 1969-cu il iyulun 14-də ömrünü Azərbaycan adlı bir məmləkətin varlığına bağlamış, taleyi Azərbaycan adı ilə qoşa yazılmış xalqımızın xilaskar oğlu, dünyanın ən böyük siyasətçilərindən olan Heydər Əliyev ölkəmizə rəhbərlik etməyə başlayıb”. Bu fikirləri Olaylar.az-a “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzu ilə bağlı fikirlərini şərh edərkən deyib.*



Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev ilk növbədə böyük Azərbaycanlı idi və bu xüsusiyyət Onun dahiliyində, siyasi fəaliyyətində səciyyələndirilməlidir: “Ümumiyyətlə, Ulu Öndərin qəlbi tam mənada Azərbaycanla döyünürdü və O, hər zaman, hər dəqiqə ölkəsi, xalqı haqqında düşünür, gələcək planlar üzrə yorulmadan çalışırdı. SSRİ DTK-dan başlayan yol da buna əsaslanırdı. İstər həmin dövrlərdə, istərsə də sonrakı zamanlarda öz xalqında və dövlətinə xidmət amalı özünü tam şəkildə sübuta yetirdi. 1969-cu ilin 14 iyul xalqımızın, Azərbaycanımızın yeni tarixinin dönüş mərhələsinin başlanğıc nöqtəsi oldu. Demək olar ki, bütün sosial-iqtisadi sahələrdə canlanma, yenilənmə və müasirləşməyə start verildi. Bu gün biz həmin dövr barədə danışanda vurğulayırıq ki, müasir Azərbaycan dövlətçiliyinin söykəndiyi təməl prinsiplər məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yaradılıb”.

Xüsusilə vurğulamaq istərdim ki, məhz Heydər Əliyevin təşəbbüsü və gərgin əməyi, səyi nəticəsində Cəmşid Naxçıvanski adına Hərbi məktəbin açılması Azərbaycanın həyatında çox mühüm bir hadisə oldu”, deyən siyasi ekspert bildirib ki, ilk dəfə olaraq, ölkədə hərbi kadrlar yetişdirilməyə başlandı: “Bundan başqa, azərbaycanlı gənclərin SSRİ-nin adlı-sanlı hərbi məktəblərinə göndərilməsinin də təşəbbüskarı məhz Heydər Əliyev oldu. Biz bu addımın da vacibliyini müstəqillik qazandıqdan sonra, erməni təcavüzkarlığı ilə qarşılaşanda daha yaxşı dərk etdik, ümummilli liderimiz Heydər Əliyevin hər bir addımının müstəqillyə hesablandığının bir daha şahidi olduq”.

“Burada əsas məqam odur ki, Ulu Öndərin bütün addımlarında Azərbaycançılıq faktoru dayanırdı”, deyə qeyd edən Bəhruz Quliyev həmçinin əlavə edib ki, milli dövlətçilik məfkurəsinin formalaşdırılması, milli özünüdərkin inkişaf etdirilməsi kimi ideyaların hər biri müstəqil Azərbaycan dövlətinin yaradılması üçün mühüm amil daşıyıcısı idi ki, Ulu Öndər Heydər Əliyev bu mühüm məqamı öndə tuturdu: “Onun özü də daim çıxışlarında vurğulayırdı ki, hələ Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə ölkəmizin müstəqilliyi barədə düşünür, bu istiqamətdə çalışırdı. Hətta Moskvada siyasi fəaliyyətini davam etdirərkən, Heydər Əliyev həmin yöndəki fəaliyyətindən bir an da olsa ayrılmırdı. Məhz bu kimi faktları kifayət qədər çox sadalamaq olar. Bu gün biz müstəqil, müasir, sabit, inkişaf edən, öz sözünü ən mötəbər beynəlxalq tribunalardan deyən Azərbaycanda yaşamağımıza görə bilavasitə Ulu Öndər Heydər Əliyevə minnətdar olmalıyıq və biz əminik ki, bu gün Onun layiqli davamçısı, siyasi varisi İlham Əliyev Azərbaycanımızı tərəqqili yolla irəliyə aparacaq, Ulu Öndərimizin ideologiyasını inkişaf etdirəcək, dövlətimizin daha da qüdrətlənməsi üçün hər zaman öndə olacaqdır”.

# Əli Əhmədov ABŞ-da səfərdədir



Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - icra katibi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov ABŞ-a işgüzar səfərə gedib. SİA-nın məlumatına görə, səfərdə məqsəd iyulun 15-də Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üzrə hesabatı BMT-yə təqdim etməkdir. Konfrans BMT-nin Nyu York şəhərində yerləşən Baş Qərargahında keçiriləcək. Bu, Azərbaycanın təqdim edəcəyi sayca ikinci hesabatdır.

# ATƏT PA-nın Yekun Deklarasiyasında Azərbaycanın maraqları təmin olundu



ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyasında qəbul edilən “Yekun Deklarasiya”da Azərbaycanın maraqları təmin olundu. SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən növbədənkənar iclasında parlamentin vitse-spikeri Bahar Muradova deyib. B.Muradova bildirib ki, müzakirə olunan bəyannamənin 22-ci maddəsində yer alan müddəa Ermənistanda çox ciddi qarşıdurmalara, müzakirələrə səbəb olub: “Həmin maddədə nəzərdə tutulur ki, ilk dəfə olaraq Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova ərazisində olan konfliktlərə eyni prizmadan yanaşılmalıdır. İrəli atılan ən vacib və güclü addım məhz bu məsələlərin bir maddədə toplanması və vahid prizmadan dəyərləndirilməsi idi”. B.Muradova vurğulayıb ki, ATƏT PA razılaşdırılmış format daxilində tərəflərin ilkin şərti olmadan ərazi bütövlüyü, suverenlik və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanaraq Azərbaycan, Ukrayna, Gürcüstan və Moldovadakı münaqişələri həlli üçün konkret nəticələrə yönəlik müzakirə və danışıqları akitvləşdirməyi tövsiyə edir.

# Oğuzda yay məktəbinin ikinci turu başlayıb



İyulun 12-də Oğuz rayonunda Yeni Azərbaycan Partiyasının təşkil etdiyi “Gənc liderlər üçün yay məktəbləri”nin ikinci turu başlayıb. İkinci turda da layihə çərçivəsində müxtəlif seminarlar, təlimlər, diskussiyalar, interaktiv, intellektual və əyləncəli oyunlar təşkil ediləcək. Yay məktəbində gənclərin siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili, beynəlxalq əlaqələrin genişlənməsi, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetiriləcək. Nəzərdə tutulmuş proqrama uyğun olaraq layihə çərçivəsində partiyanın fəaliyyəti, gördüyü işlər barədə geniş məlumatlar veriləcək, eləcə də gəncləri maraqlandıran müxtəlif tədbirlər təşkil olunacaq.



# HEYDƏR ƏLİYEV - yeni milli intibahın və müstəqil dövlətçiliyin əsasını qoymuş tarixi şəxsiyyət



*"Azərbaycan" qəzetinin 2019-cu il 12 iyul tarixli nömrəsində Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun ümummilli lider Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə gəlməsinin 50 illiyi ilə bağlı "HEYDƏR ƏLİYEV - yeni milli intibahın və müstəqil dövlətçiliyin əsasını qoymuş tarixi şəxsiyyət" sərlövhəli geniş məqaləsi dərc olunub. AZƏRTAC məqaləni təqdim edir.*

x x x

50 il əvvəl Azərbaycanın siyasi həyatında baş vermiş mühüm bir hadisə respublikada köklü dəyişikliklərin başlanmasına təkan verdi və gələcək inkişaf perspektivlərinin müəyyənləşməsi yolunda yeni tarixi dönüşün əsasını qoydu. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) plenumunda 46 yaşlı Heydər Əliyev AKP MK-nın birinci katibi, yəni faktiki olaraq respublikanın rəhbəri seçildi.

O vaxta qədər dövlət təhlükəsizlik orqanlarında işləmiş, 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri olan general-mayor Heydər Əliyevin bu vəzifəyə yüksəlişi respublikanın geniş ictimaiyyəti, xüsusilə ziyalı elitası tərəfindən böyük rəğbətlə qarşılandı. Ona görə ki, təhlükəsizlik orqanlarında işlədiyi müddətdə o, vətəninə dərindən bağlı olan çox sayda insanı saxta ittihamlarla repressiya olunmaq təhlükəsindən qorumuş, sürgün və ölümdən xilas etmiş, xalqın milli intibahı yolunda çalışan ziyalıların təqib edilməsinə, onların cəmiyyətdən təcrid olunmasına imkan verməmişdi.

Onu da qeyd edək ki, həmin ərəfədə respublikada ciddi dəyişikliyə ehtiyac olduğunu Azərbaycan cəmiyyətinin böyük hissəsi yaxşı başa düşürdü. Ölkədə baş verən proseslər fonunda sosial-iqtisadi inkişafın sürətləndirilməsi və əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün yeni təşəbbüslərin irəli sürülməsi, qətiyyətli addımların atılması zəruri idi. O dövr respublika əsas sosial-iqtisadi inkişaf göstəricilərinə görə orta ittifaq səviyyəsindən xeyli geridə qalırdı. Məsələn, Azərbaycanda 1965-ci ildə 1940-cı illərə nisbətən ümumi daxili məhsul 3,6, o cümlədən sənaye məhsullarının həcmi 4 dəfə artmışdı. Lakin ittifaq üzrə bu göstəricilər müvafiq olaraq 6 və 8 dəfəyə çatırdı. Respublikanın neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesinin iş ritmi tez-tez pozulur, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri aşağı düşürdü. Azərbaycan milli gəlirin həcminə görə ümumittifaq səviyyəsindən 2 dəfədən çox, əsas fondlara görə 1,8, kapital qoyuluşu üzrə 1,7, əmək məhsuldarlığına görə isə 1,5 dəfə geridə idi.

Həmin dövrdə respublikanın regionlarının sosial-iqtisadi inkişafına da kifayət qədər diqqət göstərilmirdi. Kənd təsərrüfatında aqrotexniki qaydalara düzgün əməl olunmaması, meliorasiya və mexanikləşdirmə tədbirlərinin görülməməsi səbəbindən həm ərzaq, həm də texniki bitkilərin məhsuldarlığı aşağı düşmüşdü. İri sənaye və emal müəssisələrinin əksəriyyəti Bakı, Sumqayıt şəhərlərində tikilirdi ki, bu da orta və kiçik şəhərlərin inkişafının qarşısını alır, urbanizasiya prosesinin proporsional şəkildə getməsinə əngəl olurdu.

Digər tərəfdən respublikada korrupsiya və gizli iqtisadiyyat geniş yayılmış, qanunçuluğa əməl olunmasına və mədəni quruculuğa diqqət zəifləmiş, mənəvi-psixoloji iqlim qeyri-sağlam məcraya yönəlmişdi. Təbii ki, bu çətin və mürəkkəb vəziyyətin aradan qaldırılması üçün analitik təfəkkürə malik, güclü və bacarıqlı təşkilatçı, cəsarətli bir liderə ehtiyac var idi. Belə bir lider məhz Heydər Əliyev oldu.

Nəhəng quruculuq yollarında

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra keçirilən ilk MK plenumunda (1969-cu il avqust) həmin dövr üçün sensasiyalı sayıla biləcək məruzəsində sovet hakimiyyəti tarixində ilk dəfə olaraq sosialist cəmiyyətində vəzifədən sui-istifadə, korrupsiya kimi mənfi halların mövcudluğunu və onlara qarşı mübarizə aparılmasının gərəkliyini bəyan etdi. Məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyət böyük prinsipiallıqla dərindən və hərtərəfli təhlil olundu və xalq təsərrüfatına, mədəni quruculuğa rəhbərlikdə buraxılmış ciddi nöqsanlar və çatışmazlıqlar ictimaiyyətin diqqətinə çatdırıldı. Yeni birinci katib bütün təşkilatları dövlət və əmək intizamını möhkəmlətməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa istiqamətləndirdi. Heydər Əliyev 1969-1970-ci illərdə keçirilən Azərbaycan KP MK-nın bütün plenumları, fəallar yığıncaqları və başqa toplantılardakı məruzə və çıxışlarında ardıcıl olaraq təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil edir və yeni vəzifələr qarşıya qoyurdu. Məhz həmin illər Azərbaycanın iqtisadi, ictimai-siyasi və mədəni-mənəvi həyatında dönüş mərhələsi oldu. Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi, ciddi nizam-intizamın yaradılması, kadr dəyişikliklərinin həyata keçirilməsi, işgüzar mühitin sağlamlaşdırılması sahəsində məqsədyönlü tədbirlər qarşıya qoyulan yüksək vəzifələrin yerinə yetirilməsinə lazımi şəraiti təmin edirdi.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü respublika həyatının bütün sahələrində, sözün həqiqi mənasında, inqilabi sıçrayış mərhələsi kimi tarixə düşmüşdür. Əgər sovet hakimiyyətinin bütün əvvəlki 50 ilində (1920-1970-ci illər) Azərbaycanın iqtisadiyyatına bütövlükdə 14 milyard rubl (ildə orta hesabla 280 milyon rubl) sərmayə qoyulmuşdusa, 15 ildə (1971-1985-ci illər) bütövlükdə 36 milyard rubl (hər il orta hesabla 2,4 milyard rubl), yəni ildə 10 dəfəyə yaxın çox vəsait sərf olunmuş, yüzlərlə yeni sənaye müəssisəsi tikilərək istifadəyə verilmişdir. 1969-cu ildə sənaye obyektlərinin sayı 735 olmuşsa, 1982-ci ildə bu rəqəm 1048-ə çatmışdı. O dövrdə həm Bakıda, həm də Azərbaycanın digər şəhərlərində və rayon mərkəzlərində çox sayda sənaye müəssisəsi işə salındı. Bakı Kondisionerləri Zavodu, "Ozon" Elm-İstehsalat Birliyi, Elektron Hesablayıcı Maşınlar Zavodu, Dərin Özüllər Zavodu, Sumqayıt Kompressor Zavodu, Üst Trikotaj Fabriki, Gəncə Əlvan Metallar Emalı Zavodu, Naxçıvan Şüşə Qablar Zavodu, Əli Bayramlı Məişət Cihazları Zavodu və 1970-80-ci illərdə Heydər Əliyevin əməyi sayəsində işə başlamış yüzlərlə digər sənaye obyekti hesabına Azərbaycanın ixrac potensialı kifayət qədər yüksəlmişdi. Həmin illərdə respublikada buraxılan 350 adda sənaye və kənd təsərrüfatı məhsulu dünyanın 65 ölkəsinə göndərilirdi.

Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublikada aqrar sahənin hərtərəfli və intensiv inkişafını nəzərdə tutan bir neçə xüsusi qərar qəbul etmişdir. Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1970-ci illərdə Azərbaycanda kənd təsərrüfatı istehsalının artırılması və intensivləşdirilməsi, bu sahənin daha da ixtisaslaşdırılması, üzümçülük və şərabçılığın inkişaf etdirilməsi, irriqasiya və meliorasiya obyektlərinin tikilməsi barədə qərarları respublikaya ümumittifaq büdcəsindən böyük miqdarda əlavə vəsaitin ayrılmasına şərait yaradırdı. Sosial-iqtisadi inkişafa təkan verən və Azərbaycan xalqının mənafeləri baxımından böyük əhəmiyyətə malik olan həmin qərarların və digər tədbirlərin həyata keçirilməsi sayəsində aqrar sektorda məhsul istehsalı 2 dəfədən çox artmışdı.

Həmin illərdə Azərbaycan keçmiş SSRİ-nin ən böyük üzümçülük respublikasına çevrildi. Üzüm istehsalı 1969-cu ildəki 272 min tondan 1980-ci ildə 1 milyon 481 min tona çatdırıldı, respublika şərabçılıqdan yüksək mənfəət götürməyə başladı. Pambıqçılığın sürətlə inkişafı məhsul yığımını 1970-ci ildəki 335, 6 min tondan 1982-ci ildə bir milyon tona qədər artırmağa imkan verdi. Meyvə-tərəvəz istehsalı isə 1970-ci ildəki 410 min tondan 1982-ci ildə 850 min tona yüksəldi.

1970-ci illərdə Azərbaycanda meliorasiya infrastrukturunun inkişafı sahəsində ciddi tədbirlər görüldü. Nəticədə yeni əkin sahələri dövriyyəyə cəlb edildi, aqrar sahədə məhsuldarlıq yüksək səviyyəyə çatdı. Həmin illər Baş Mil, Ciqar-Cibar, Abşeron, Lənkəran kanalları, Araz su qurğusu, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Sirab, Şəmkir, Köndələnçay və digər dəryaçalar tikilib istifadəyə verildi.

Ardı Səh. 6

# HEYDƏR ƏLİYEV - yeni milli intibahın və müstəqil dövlətçiliyin əsasını qoymuş tarixi şəxsiyyət

Əvvəli-Səh-5

1969-1982-ci illər Azərbaycanda milli gəlir 2,5, əmək məhsuldarlığı 2, istehlak mallarının istehsalı isə 3 dəfə artdı. Bu illər ərzində istehsal olunmuş sənaye məhsulunun həcmi əvvəlki 50 ilin istehsal həcminə bərabər idi.

Beləliklə, ölkənin sosial-iqtisadi həyatında sürətli tərəqqi baş verdi, Azərbaycan ümumilikdə SSRİ miqyasında birinci üçlüyə yüksələrək özünü dolandıran və mərkəzi büdcəyə donorluq edən qabaqcıl aqrar-sənaye respublikasına çevrildi. Bu potensial, xüsusilə də neft-qaz emalı, maşınqayırma və emal müəssisələri sonralar müstəqilliyin çətin illərində Azərbaycan iqtisadiyyatının yenidən qurulması üçün baza rolunu oynadı.



### Milli-mənəvi özünüdərkin yüksəlişi və milli ideyanın gerçəkləşməsi uğrunda

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ilk dövrdə azərbaycançılıq məfkurəsinin möhkəmlənməsi, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində mühüm işlər görmüşdür. Keçmiş SSRİ-də, sovet və partiya həyatında hakim olan bütün normalara, marksizm-leninizm ideologiyasının tələblərinə rəğmən Heydər Əliyev standart stereotiplərdən kənara çıxmağı, mövcud sistemin qaydalarını formal şəkildə pozmadan yeniliklər etməyi bacarırdı. O illərdə Azərbaycan xalqı öz dilini, ədəbiyyatını, tarixini, zəngin milli mədəniyyətinin rəngarəngliyini və çoxcəhətliliyini sanki təzədən qavrayır və yenidən qiymətləndirirdi. Elə buna görə də Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasında yeni mərhələnin başlanğıcı kimi qəbul etmək lazımdır.

Heydər Əliyev sovet dövründə öz milli-mənəvi dirçəliş konsepsiyasını əməli siyasət məcrasında gerçəkləşdirmək üçün olduqca təsirli vasitələrdən istifadə etmişdir. Məsələn, belə səmərəli üsullardan biri kimi, Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığının təbliğ olunmasını göstərmək olar. Ulu Öndər onların yubileylərinin müntəzəm qeyd edilməsi, əsərlərinin nəşri, ev-muzeylərinin yaradılması kimi məsələlərə xüsusi önəm verirdi. Bu, imkan verirdi ki, Azərbaycanın tanınmış simalarının xalqın taleyüklü problemləri, keçmişi və gələcəyi ilə bağlı olan mühüm konseptual fikirləri üzə çıxarılsın, sistemləşdirilsin və nəticədə milli düşüncənin güclənməsinə, böyüməkdə olan nəslin dünyagörüşünün formalaşmasına xidmət etsin. Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanda və keçmiş SSRİ-nin paytaxtı Moskvada tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülmüş, abidələri ucaldılmışdır. Bəziləri elə düşünə bilər ki, həmin dövrdə bu adi və asan məsələ idi və başqa müttəfiq respublikalarda da Moskvanın tapşırığı ilə həmin addımlar atılırdı. Əslində isə belə deyildi. Bunun üçün respublikaya rəhbərlik edən şəxsin öz xalqının milli-mənəvi dünyasına və tarixinə dərindən bələd olması və onu milli ideya ətrafında birləşdirmək kimi ali məqsədə xidmət etmək niyyəti, qətiyyətli fəaliyyəti mühüm şərtdir. Heydər Əliyevi respublikanın əvvəlki rəhbərlərindən fərqləndirən və onu Ümummilli Lider səviyyəsinə ucaldan əsas cəhət də məhz budur. Bu fikri Azərbaycanın görkəmli şəxsiyyətlərinə münasibətdə daha aydın izah edə bilərik. Məsələn, Cəfər Cabbarlı 1934-cü ildə vəfat etsə də, 1980-ci ilə qədər onun Bakıda nə abidəsi, nə də ev-muzeyi var idi. Üzeyir Hacıbəyli 1948-ci ildə, Bülbül 1962-ci ildə, Səməd Vurğun 1956-cı ildə vəfat etmişlər. Lakin xalqımızın tanınmış hər üç mədəniyyət xadiminin ev-muzeyi yetmişinci illərdə açılmışdır. Molla Pənah Vaqifin Şuşa şəhərindəki əzəmətli məqbərəsi də 1981-ci ildə tikilib başa çatdırılmışdır. Bakıda Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadinin, Müslüm Maqomayevin ev-muzeylərinin açılması barədə qərarlar da 1981-82-ci illərdə qəbul edilmişdir.

Bəs nə üçün o vaxta qədər bu işlər görülməmişdi? Ulu Öndər sonralar müsahibələrinin birində bu məsələlərdən danışarkən özünəməxsus müdrikliklə demişdi: "Əlbəttə, Azərbaycan, Bakı üçün bu, adi bir şey idi. Sadəcə olaraq bunu düşünən yox idi". Bəli, məhz düşünən yox idi. Başqa sözlə desək, söhbət təkcə həmin görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirməkdən getmirdi. Həm də məqsəd onların yaradıcılığı vasitəsilə azərbaycanlıların milli şüuruna, tarixi yaddaşına və mənəvi dünyasına təsir göstərərək dövlətçilik duyğularının sönməsinə imkan verilməməsindən ibarət idi. Məsələ bundadır ki, bu yolda bəzən çətin qərarlar da vermək lazım gəlirdi. Ola bilər ki, yuxarıda qeyd edilən şəxsiyyətlərlə bağlı hər hansı müsbət işin görülməsi Ulu Öndərin də qeyd etdiyi kimi "adi bir şey", sadəcə barəsində düşünmək kifayət edəcək bir məsələ idisə, Hüseyn Cavidin qəbrini tapıb nəşinin qalıqlarını Azərbaycana gətirmək o qədər də asan iş deyildi. Çünki həmin dövrdə repressiya qurbanlarına münasibət kökündən dəyişməmişdi. H.Cavidin əsərləri çap olunmağa, teatrlarda göstərilməyə başlasa da, "millətçi", "pantürkist" damğaları hələ də üstündən tam götürülməmişdi. Ulu öndər Heydər Əliyev H.Cavidin nəşinin Vətənə gətirilməsi və dəfni ilə bağlı da olduqca müdrik addım atdı. O, sonralar xatırlayırdı: "Şairin qızı Turan xanım çox istəyirdi ki, o, Bakıda, Fəxri xiyabanda dəfn olunsun. Mən təklif etdim ki, Cavid Naxçıvanda, anadan olduğu yerdə dəfn edilsin. Qoy tarix aydın etsin hansı təklif daha düz olub! Fəxri xiyabanda yan-yana yatan dahilər çoxdur, lakin Naxçıvan torpağında onun qəbri ziyarətgaha çevriləcək. Mən belə fikirləşdim ki, Cavidin qəbri üzərində Nizaminin, Vaqifin məqbərəsi kimi məqbərə tikilsin. Bundan qabaq isə biz Naxçıvanda onun evmuzeyini açmışdıq. Zənnimcə, bu, tək xeyirxahlıq deyil, mənim öz xalqım qarşısında borcumdur. Əgər xalq o dövrdə mənə inanmışdısa, öz taleyini mənə tapşırmışdısa, mən onun haqqında düşünməli idim".

Ulu Öndər yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraitinin təmin olunmasına çalışırdı. O, yaxşı başa düşürdü ki, milli özünüdərk prosesi onların fəaliyyətindən çox asılıdır. Onun köməyi ilə 1969-cu ildə "Qobustan" almanaxı nəşr edilməyə başladı. Qədim Gəncə şəhərinin adının yaşaması üçün "Yeni Gəncə" adlı rayon yaradıldı. Heydər Əliyev ilk dəfə "İran Azərbaycanı" əvəzinə "Cənubi Azərbaycan" siyasi-coğrafi termininin dövriyyəyə buraxılmasına nail oldu. Cənubi Azərbaycanla birlik, həsrət hisslərinin ədəbi ifadəsinə geniş imkanlar yaratdı. Bunun bariz nümunəsi kimi 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqının Cənubi Azərbaycan üzrə katibi postu təsis edilməsini xatırlamaq kifayətdir.

Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərliyə başladığı ilk günlərdən xalqın tarixinə, ana dilinə hörmət ifadə edən cəsarətli addımlar atmaqdan çəkinmirdi. 1969-cu ildə bəziləri Azərbaycan tarixini saxtalaşdıraraq Bakı Dövlət Universitetinin açılmasını Azərbaycan Xalq Cümhuriyyətinin xidməti kimi deyil, respublikamızda sovet hakimiyyətinin qurulmasının nəticəsi kimi qələmə verməyə çalışır, müxtəlif bəhanələr gətirərək universitetin 50 illik yubileyini 1970-ci ildə, yəni Azərbaycanda sovet hakimiyyəti qurulmasının yubileyi ilə bir vaxtda qeyd etmək istəyirdilər. Lakin Heydər Əliyev buna imkan vermədi və universitetin 50 illiyini 1969-cu ildə qeyd etmək barədə qərar qəbul etdi. O, 1969-cu il noyabrın 1-də Bakı Dövlət Universitetində keçirilən yubiley mərasimində Azərbaycan dilində nitq söylədi. Bu həmin dövr üçün görünməmiş hadisə idi. O vaxta qədər respublikanın bütün rəhbərləri rəsmi toplantılarda yalnız rus dilində çıxış edirdilər.

Heydər Əliyev hesab edirdi ki, milli ruhun yüksəlişinə təkan verən əsas şərtlərdən biri məhz ana dilidir. O, ana dilinin cəmiyyətin daxili institusional quruluşuna və konsolidasiyasına təsirini lazımınca qiymətləndirir, Azərbaycan dilinin dövlət dili səviyyəsində təsbit olunması ilə yanaşı, cəmiyyət həyatının bütün sahələrində geniş istifadə edilməsinə çalışırdı. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan tarixinə və ana dilinə aid araşdırmalar yüksək dövlət mükafatlarına layiq görülür, tədqiqatçılar bu sahələrdə daha səylə işləməyə həvəsləndirilirdilər. Bu bir həqiqətdir ki, Ulu Öndərin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dilinin cəmiyyətdə dominant rolunun təmin edilməsi milli məfkurənin formalaşmasına, milli dövlətçilik ideyasının güclənməsinə və gələcəyin müstəqil Azərbaycanının yaradılmasına həlledici təsir göstərmişdir.

Ardı Səh. 7

# HEYDƏR ƏLİYEV - yeni milli intibahın və müstəqil dövlətçiliyin əsasını qoymuş tarixi şəxsiyyət

Əvvəli-Səh-6



### Xalqın gələcəyini düşünən lider

Ümummilli Liderin Azərbaycana rəhbərliyinin birinci dövründə diqqət ayırdığı ilk məsələlərdən biri də təhsil və yüksəkixtisaslı kadrların yetişdirilməsi olmuşdur. 70-ci illərədək respublikadan SSRİ-nin başqa şəhərlərinə ildə cəmisi 50 nəfər tələbə göndərilirdi, onların da əksər hissəsi qeyri-azərbaycanlılar idi. Həmin mütəxəssislərin çox az qismi sonra Azərbaycana qayıdırdı. Heydər Əliyev bu məsələnin Mərkəzi Komitənin nəzarətinə götürülməsi barədə tapşırıq verdi, SSRİ-nin başqa şəhərlərinin, xüsusən Moskvanın, Leninqradın ali məktəblərinə göndərilən gənclərin sayının ilbəil artırılmasını və əksəriyyətinin azərbaycanlı olmasını tapşırdı. Beləliklə, 1975-ci ildə SSRİ-nin müxtəlif şəhərlərinə 400 tələbə, 1978-ci ildən isə 50-dən çox şəhərin ali məktəbinə ildə 800 nəfər tələbə göndərildi. Əslində bu, Azərbaycanın bir ali məktəbinin qəbuluna bərabər idi. Heydər Əliyev hər il başqa şəhərlərin ali məktəblərinə yollanan gənclərlə respublikanın partiya-sovet fəallarının görüşünü keçirir, onların qarşısında çıxış edirdi.

Həmin illər respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi də genişləndirilmiş, 5 yeni ali məktəb, onlarla texnikum açılmışdı.

Hərbi təhsilin inkişafına da xüsusi diqqət yetirilirdi. O illərdə hazırlanmış yüksəkixtisaslı kadrlar sonralar müstəqil Azərbaycan dövlətinin ordusunun qurulması və möhkəmləndirilməsinə öz töhfələrini verdilər. Xatırladaq ki, 1970-1971-ci illərdə respublikanın rayonlarına hərbi komissar göndərməyə azərbaycanlı zabit tapılmırdı. Orduda azərbaycanlı generalların, zabitlərin sayı həddindən artıq az idi. Ümummilli Lider sonralar onu həddindən artıq qayğılandıran bu məsələ barədə deyirdi: "Çar dövründə müsəlmanlar orduya çağırılmırdılar, hətta elə bir vaxtda rus ordusunda bizim Əliağa Şıxlinski, Mehmandarov kimi generallarımız var idi. Niyə indi başqa millətlərin marşalı, generalları var, bizim isə yox?" Heydər Əliyev bu problemi də ardıcıl və sistemli şəkildə həll etdi. SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin çoxlu sayda göndərilməsi üçün hərbi təmayüllü xüsusi internat məktəbi yaradıldı. Məktəbə qəbul olunanların əksəriyyəti azərbaycanlılar idi. Onlar 3 il oxuyub orta təhsil alır, hərbi hazırlıq keçir, rus dilini mənimsəyir, sonra isə müvəffəqiyyətlə ali hərbi məktəblərə qəbul olunurdular. Məktəbə 1937-ci ildə repressiya olunaraq güllələnmiş general Cəmşid Naxçıvanskinin adı verildi. Heydər Əliyev hər il Mərkəzi Komitənin Büro üzvləri ilə bərabər həmin məktəbə gedir, vəziyyətlə tanış olur və kollektiv qarşısında çıxış edirdi. Ulu Öndər sonralar o unudulmaz anları fəxrlə yada salaraq deyirdi: "Çox sevinirdim ki, onun məzunları - azərbaycanlılar zabit olurlar, sovet ordusunda qulluq edirlər. Əgər Azərbaycan öz suverenliyi, tam azadlığı barədə fikirləşirsə, o, ilk növbədə öz milli ordusu, milli zabitləri barədə fikirləşməlidir. Mən bunların hamısını düşünürdüm".

Heydər Əliyev Bakıdakı Azərbaycan SSR Ali Soveti adına Hərbi Məktəblə də bağlı vəziyyəti nəzarətə götürdü: "Aydınlaşdırdıq ki, hər il qəbul olunan 350 nəfər kursantın ancaq 10-15 nəfərini azərbaycanlılar təşkil edir. Xətai rayonu ərazisində Kirov adına Ali Hərbi Dəniz Donanması məktəbi var, özü də ölkədə olan Ali Dəniz Donanması məktəbləri arasında fərqlənir. Burada xarici tələbələr də oxuyurlar. Məktəbə ildə bir, ya iki azərbaycanlı qəbul olunurdu. Biz bu sahədə də lazımi tədbirlər gördük. Azərbaycanın ərazisində olan bu iki ali hərbi məktəbə qəbul olunan azərbaycanlıların sayını bir neçə dəfə artırdıq. Ümumiyyətlə, 1980-81-ci illərdə hər il ölkənin ali hərbi məktəblərinə ildə 800 nəfərdən çox gənc azərbaycanlı göndərməyə nail olduq. Tarixdə ilk dəfə Bakı Ali Hərbi Məktəbinə rəis azərbaycanlı - general Bərşadlı təyin olundu. Xəzər Hərbi Dəniz Donanmasının Komandanı isə azərbaycanlı admiral Qasımbəyov oldu. 1967-70-ci illərdə azərbaycanlılardan Hüseyn Rəsulbəyov adlı bircə general-leytenant rütbəli adamımız vardı. O, Bakı hərbi hava müdafiəsi dairəsində raket qoşunlarına komandanlıq edirdi. Sonra isə ordu sıralarında azərbaycanlı generalların sayı artdı. Tofiq Ağahüseynov Bakı Hərbi Hava Müdafiəsi Dairəsi rəisinin birinci müavini təyin edildi. O, azərbaycanlıların içərisində ən yüksək hərbi rütbə - general-polkovnik rütbəsini almağa layiq görüldü".

Heydər Əliyev hərbi-vətənpərvərlik hisslərinin gücləndirilməsi, eyni zamanda azərbaycanlıların qəhrəmanlığı və hərbi şücaətlərinin təbliği istiqamətində böyük işlər görürdü. O, İkinci Dünya müharibəsində Azərbaycanın və xalqımızın oynadığı rolun düzgün qiymətləndirilməsinə çalışırdı. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Taqanroqda 416-cı Azərbaycan diviziyasının şərəfinə möhtəşəm xatirə ansamblı, Sevastopolda Sapun Qora ərazisində 77-ci Azərbaycan diviziyasının şərəfinə isə böyük abidə ucaldılmışdı. Heydər Əliyev Bakı şəhərinin, Azərbaycan neftçilərinin nasizm üzərində qələbədə həlledici rol oynadığını və bu faktın dünya miqyaslı tarixi əhəmiyyət daşıdığını SSRİ rəhbərliyi tərəfindən qəbul edilməsinə çalışmış, 1978-ci ildə Bakının "Lenin" Ordeni ilə təltif edilməsinə nail olmuşdu.

Qısa müddət ərzində qazanılan böyük uğurlar Sovet İttifaqı miqyasında da diqqəti cəlb etmiş və Azərbaycan rəhbərinin şəxsiyyətinə marağı artırmışdı. Təsadüfi deyil ki, Heydər Əliyev 1976-cı ildə daha yüksək siyasi statusa layiq görülərək Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçilmişdi. Bu isə onu bir sıra digər müttəfiq respublikaların başçılarından fərqləndirirdi. Ulu Öndər sonralar bildirirdi ki, o, bu üstünlükdən öz xalqının mənafeyi üçün səmərəli istifadə etmişdir: "SSRİ Nazirlər Sovetindəki əlliyə yaxın nazirdən hansına telefon etsəydim, Azərbaycan üçün hər hansı mühüm işin görülməsi onlar üçün əmr sayılırdı. Bu şəraitdən Azərbaycan üçün istifadə etdim".

### Bütün varlığı ilə doğma diyara bağlı rəhbər

1982-ci ilin sonlarında Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Büro üzvü seçildikdən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduqdan sonra da iş yükünün ağırlığına, 60-dan çox sahəyə cavabdehlik daşımasına baxmayaraq, Azərbaycanla daim yaxından maraqlanmış, respublikanın sosial-iqtisadi, mədəni və digər sahələrdə tərəqqisi naminə əlindən gələn köməyi əsirgəməmişdir. Heydər Əliyev Moskvada olduğu dövrdə neft-qaz sənayesinin və digər sahələrin inkişafına diqqət yetirir, mühüm obyektlərin maliyyələşdirilməsi üçün SSRİ Dövlət Plan Komitəsi qarşısında məsələ qaldırırdı. Nəticədə, 1985-ci ildə "Çıraq", 1987-ci ildə "Azəri" yatağı kəşf edildi. Təməli hələ 1978-ci ildə qoyulan Dərin Özüllər Zavodu onun köməyi sayəsində 1984-cü ildə istismara verildi və 1986-cı ildə isə layihə gücünə çatdırıldı. Bundan əlavə, Azərbaycanın şimal-qərb bölgəsini mərkəzi nəqliyyat şəbəkəsi ilə bağlayan 160 kilometr uzunluğunda və ən çətin sahədən keçən Yevlax-Balakən dəmir yolu Ulu Öndərin birbaşa qayğısı ilə çəkilib, 1985-ci ildə istifadəyə verildi. Həmin xəttin tikintisi zamanı burada yeni stansiyalar, yaşayış evləri, uşaq bağçaları, məktəblər inşa edildi.

Heydər Əliyev Bakı metrosunun inkişafı istiqamətində əvvəlki illərdə başlanılan işlərin davam etdirilməsini öz nəzarətində saxlayırdı. 1985-ci ilin dekabrında "Elmlər Akademiyası", "İnşaatçılar", "XI Qızıl Ordu" (indiki "20 Yanvar") və "Memar Əcəmi" stansiyaları istifadəyə verildi. Su nəqliyyatı infrastrukturu da diqqətdən kənarda qalmadı. 1985-ci ildə Xəzərdə yeni bərə keçidi açıldı. Bu bərə Azərbaycanı Qazaxıstanla birləşdirdi. Dənizə "Sovet Dağıstanı" və "Sovet Tacikistanı" gəmiləri gətirildi. Ümumiyyətlə, həmin dövrdə Xəzər dəniz gəmiçiliyində donanmanın üçdəbiri təzələndi.

Heydər Əliyev bütün imkanlardan istifadə edərək Azərbaycan mədəniyyətinin xaricdə tanıdılmasına və beynəlxalq mədəni əlaqələrinin yaradılmasına dəstək verirdi. Həmin dövrdə bir sıra beynəlxalq konfrans, simpozium, dekada və yarmarkalar Bakıda keçirilirdi. Dünyanın məşhur aktyorları, rejissorlar və digər incəsənət mütəxəssisləri Bakıya ezamiyyətə gəlir, azərbaycanlı sənətkarlarla mədəni mübadilə edirdilər. Bakıda beynəlxalq kino həftələrinin keçirilməsi isə artıq ənənəvi xarakter almağa başlamışdı. 1983-cü ildə Azərbaycanın paytaxtında Danimarka, 1984-cü ildə Hindistan, 1986-cı ildə Misir, Rumıniya, Çexoslovakiya, Bolqarıstan, 1987-ci ildə isə Çin kino filmləri həftələri keçirilmişdi.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi onun Azərbaycan səhiyyəsinə olan nəzarətini, diqqətini daha da artırmışdı. Ulu Öndər sonralar bu dövrü belə xatırlayırdı: "Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm. Mənim o vaxt həm onkoloji, həm kardioloji, həm ürək cərrahiyyəsi, həm oftalmoloji mərkəzlərin, başqalarının yaranmasında, inkişaf etməsində çox səylərim olmuşdur".

Ulu Öndərin bu illər ərzində doğma Vətəni, yurdu naminə gördüyü işlərin hamısını bir məqalədə əhatə etmək, bütün məsələlərin dərin təhlilini vermək mümkün deyildir. Lakin elmi şəkildə sübut olunmuş həqiqət ondan ibarətdir ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə xalqın qədim ənənələrə malik dövlət idarəçiliyi mədəniyyəti yenidən dirçəldilmiş, milli-mədəni oyanışda böyük dönüş başlanmış və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı iqtisadi-mədəni zəmin hazırlanmışdır. Ulu Öndərin sovet dövründəki fəaliyyətinin başlıca əhəmiyyəti ondan ibarətdir ki, ilk növbədə, milli özünüdərk prosesi sovet ideoloji sisteminin buxovlarına baxmayaraq ardıcıl davam etdirilmişdir. Digər tərəfdən, həmin illərdə baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatlar və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi müstəqil Azərbaycanın yaranmasına aparan tarixi yolun salnaməsində ən parlaq səhifələrdir. Tam inamla deməк lazımdır ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, xarici iqtisadi əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadi sistemində öz yerini getdikcə möhkəmləndirməsi həm də 1970-80-ci illərin əvvəllərində təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

Azərbaycan xalqı və dövləti ulu öndər Heydər Əliyevin zəngin irsinə böyük hörmətlə yanaşır, onu qoruyur və ondan bəhrələnir. Bu gün Ümummilli Liderin siyasi xəttini yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev Azərbaycan Respublikasının müstəqil dövlətçilik tarixinə yeni şanlı səhifələr yazır.

***Əli Həsənov***
***Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor.***



# 1969-cu ildən başlanan zəfər yolu



Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Yeni Azərbaycan Partiyasının Nərimanov rayon təşkilatı ilə birgə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş tədbir keçirib.

Öncə, tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər. Tədbiri giriş sözü ilə açan Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan tarixində böyük dönüş yarandığını, dinamik və hərtərəfli inkişafı təmin edən kompleks islahatlara başlandığını vurğulayıb. Müstəqil Azərbaycanın qurulmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna rolundan, həyat və dövlətçilik fəaliyyətindən söz açaraq, qeyd edib ki, zəngin siyasi irsə, təcrübəyə malik olan Ulu Öndərin banisi olduğu inkişaf strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizin inkişafı istiqamətində davam etdirilir.

Tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov Heydər Əliyevin Azərbaycanın inkişafı yolunda həyata keçirdiyi islahatlardan danışıb. Bildirib ki, bu gün uğurla həyata keçirilən dövlət-gənclər siyasətinin müəllifi olan Ulu Öndər Heydər Əliyev tərəfindən gənclərə hər zaman xüsusi diqqət-qayğı göstərilib. Dövlət Təhlükəsizliyi Xidmətinin ehtiyatda olan polkovnikləri Arif Zeynalov və İbrahim Şirinov Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüblər.

YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev çıxışında Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə müstəqilliyin möhkəmləndirilməsi, hərtərəfli inkişafa nail olunması, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlərdən söz açıb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin həyat və dövlətçilik fəaliyyətinə həsr olunmuş videoçarx təqdim olunub. Sonra "ASAN Könüllülük" məktəbinin təqdimatı və "ASAN Xidmət" Mərkəzi ilə tanışlıq həyata keçirilib. Həmçinin, "Yaşıl ASAN" proqramı ilə tanışlıq məqsədi ilə Sumqayıt Regional "ASAN Xidmət" Mərkəzinə və Təkrar Kağız Emalı Fabrikinə ekskursiyalar təşkil olunub.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Ümummilli Liderin siyasi hakimiyyətə gəlişi müasir tariximizin dönüş nöqtəsidir



***"1969-cu il iyulun 14-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi müasir tariximizin dönüş nöqtəsidir. Məhz bu tarixdən etibarən, Azərbaycan tənəzzüldən milli inkişaf və intibah yoluna qədəm qoydu. O dövrdə istər sosial-iqtisadi, istərsə də mənəvi-psixoloji tənəzzül yaşayan Azərbaycan Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə hər bir sahədə dirçəldi, eləcə də, mənəvi-psixoloji mühit sağlamlaşdı, milli şüurda oyanış baş verdi. Bununla da, Azərbaycanın müstəqilliyinin əsasları yaradıldı". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyası Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.***

S.Fətəliyeva bildirib ki, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilmiş, Azərbaycan müstəqilliyə qovuşmuşdur. "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır" deyən xalqımızın Böyük Oğlu Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını və milli dövlətçiliyin konsepsiyasını yaratmışdır. S.Fətəliyeva bildirib ki, azərbaycançılıq məfkurəsinin müəllifi kimi, Ulu Öndər Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Onun sözlərinə görə, məhz Ulu Öndər Heydər Əliyevin siyasi kursu sayəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamış və onu dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevirmişdir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının hər bir nümayəndəsinin rahat, azad və əmin-amanlıq şəraitində yaşaması üçün səyini əsirgəmir, bu istiqamətdə iqtisadi-siyasi, sosial-mədəni dövlət siyasətini həyata keçirirdi. Günü-gündən iqtisadi qüdrətini artıran, dünya gücləri qarşısında qamətini qürurla dik tutmağı bacaran gənc bir dövlətin həqiqi Qurucusu və Lideri Heydər Əliyevin sonrakı dövrlərdə həyata keçirdiyi bütün islahatların kökündə də, məhz bir amal, bir məqsəd dayanırdı: hər bir azərbaycanlının müstəqil, sağlam və rahat yaşayışını təmin etmək. Dünyada söz sahibi olan ölkələrin Azərbaycanla qarşılıqlı müqavilələr bağlamaları, Azərbaycanın həyata keçirdiyi irimiqyaslı layihələrdə iştirak etmək istəmələri təkcə durmadan inkişaf edən bir ölkənin artan nüfuzu və iqtisadi imkanları deyildi, həm də rifah halı yüksələn, yaşayış şəraiti yaxşılaşan Azərbaycan vətəndaşlarının həyata keçirilən bu proseslərdə birbaşa tərəf kimi iştirak etmə hüquqlarının var olması idi. Müstəqil dövlət quruculuğundan danışarkən, ölkənin xarici siyasət kursuna nəzər salmamaq mümkün deyildir. Ulu Öndər Heydər Əliyev mürəkkəb qlobal və regional vəziyyətin mövcudluğu və ölkə daxilində destruktiv qüvvələrin fəallaşdığı bir şəraitdə əsaslandırılmış xarici siyasət kursu müəyyənləşdirdi. Bu, Azərbaycan dövlətçiliyi üçün tarixi töhfə idi. Azərbaycanın xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ən başlıca yer tutur. Bu məsələdə ölkəmiz diplomatik cəbhədə işğalçıErmənistanı küncə sıxışdırıb. Bütün beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyü tanınır".

Ulu Öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda Onun layiqli davamçısı - Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilmişdir, - deyən millət vəkili qazanılan uğurların Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirdiyini vurğulayıb: "Əminliklə demək olar ki, bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Əminliklə demək olar ki, Ümummilli Lider Heydər Əliyevin qurduğu dünyəvi Azərbaycan dövləti öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır. Bu günün fövqündən baxanda, Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Azərbaycanın gələcəkdə daha böyük nailiyyətlər qazanacağı şübhəsizdir".

*Zümrüd BAYRAMOVA*




# ABŞ-ın "Con Batçelor Şou" radio proqramında ermənilərin antisemitizm əhval-ruhiyyəsindən və Azərbaycanın tolerantlığından danışılıb

**ABŞ-ın məşhur və geniş dinləyici auditoriyasına malik olan "Con Batçelor Şou" radio proqramının növbəti verilişində ermənilərin antisemitizm əhval-ruhiyyəsindən danışılıb.**

Radioverilişin aparıcısı Con Batçelor İsraildə yəhudi tələbələrə ermənilərin hücum etməsi fonunda ermənilərin anti-semitizm əhval ruhiyyəsini araşdırıb. O, bu ilin iyun ayında bir qrup erməninin iki yəhudi gənci təkləyərək onlara qarşı təcavüz göstərmələri faktını misal gətirərək bunu pisləyib.

ABŞ-ın Los-Anceles şəhərində yaşayan yazıçı və rejissor Adelle Malka Nazarianla birlikdə apardığı müzakirədə Con Batçelor bildirib ki, müsəlman ölkəsi olan Azərbaycanın İsraillə dostluq münasibətlərinə görə Ermənistan Azərbaycanı ittiham edir.

Azərbaycana bir neçə dəfə səfər etdiyini bildirən aparıcı bu ölkə haqqında silsilə verilişlər hazırladığını və Azərbaycanın Ermənistandan fərqli olaraq tolerant ölkə olduğunu qeyd edərək burada müxtəlif dinlərə mənsub insanların dinc şəraitdə birgəyaşayışını təqdirəlayiq hal kimi yüksək qiymətləndirib. Batçelor Azərbaycanın əhalisinin böyük əksəriyyəti müsəlmanlardan ibarət dünyəvi ölkə olduğunu bildirib. O deyib ki, Azərbaycan dünyanın nadir ölkələrindən biridir ki, burada çoxlu dildə - ingilis, rus, ərəb, ivrit, Ukrayna, gürcü, fars və s. dillərdə danışan insanlara rast gəlmək mümkündür. Bu da ölkədə artıq həyat tərzinə çevrilmiş tolerantlığın yüksək olmasından xəbər verən amillərdən biridir.

Azərbaycanın multikultural və müasir ölkə olduğunu bildirən Batçelor Ermənistanla Azərbaycanı müqayisə edərək Ermənistanın monoetnik və kin dolu ölkə olduğunu deyib. Qondarma soyqırımı kimi yüzillik köhnə bir məsələyə görə ermənilərin hələ də Türkiyə və Azərbaycana yersiz kin bəslədiyi vurğulanıb. Ermənilərin İsrail və Azərbaycana qarşı bu cür kinli münasibətlərinə görə onların dözümsüz olduğu, müasir dünyadan nə qədər geri qaldıqları bildirilib.

# 50 İL- MİLLİ TARİXİMİZİN DÖNÜŞ ANI

## 1969-cu il iyulun 14-dən başlanan şanlı Heydər Əliyev epoxasının vüsət və əzəmətinin parlaq təzahürü

Tarix ən ədalətli hakimdir - deyirlər. Bu gün yaxın tariximizə diqqətlə nəzər yetirdikdə, bugünkü inkişafımız, sabitlik və xoş güzəranımız üçün kimə borclu olduğumuzu yaxşı anlayırıq. Belə şəxsiyyətin siyasət meydanına çıxması isə böyük tarixi hadisə kimi daim yaddaşlarda yaşayır. Məhz 1969-cu il iyulun 14-ü ən yeni tariximizin belə şərəfli və müqəddəs səhifələrindəndir. Ümummilli Lider Heydər Əliyevin timsalında bu fikri də böyük əminliklə qeyd edirik ki, tarixdə elə şəxsiyyətlər olur ki, onların həyat və fəaliyyətindən bəhs etmək üçün bütöv bir xalqın və dövlətin tarixini vərəqləmək lazımdır. Ulu Öndər Heydər Əliyev, məhz belə xoşbəxt şəxsiyyətlərdən idi. Bu gün təntənə ilə qeyd etdiyimiz 50 illik yol, tarix yaradan şəxsiyyət kimi, nüfuz qazanan Ümummilli Liderin xidmətlərinin, Vətəninə, xalqına sevgisinin aydın mənzərəsini formalaşdırır.

Müasir Azərbaycan tarixində yeni eranın başlanğıcı sayılan həmin gün böyük dövlət xadimi,



ZƏRİFƏ QULİYEVA,
YAP Qadınlar Şurası
İdarə Heyətinin üzvü

Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir.

O öz vətənini, millətini ürəkdən sevən bir Şəxsiyyət və Lider kimi bütün bu dövr ərzində Azərbaycanın taleyüklü məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi, tarixin ağır və təlatümlü sınaqlarından çıxarmış, müasir müstəqil Azərbaycan dövlətinin, onun xoşbəxt gələcəyinin bünövrəsini qoymuşdur. Həmin illər ərzində, Azərbaycanın sosial-iqtisadi həyatının dirçəlişi, milli-mənəvi və mədəni dəyərlərinin inkişaf etdirilərək dünya ictimaiyyətinə çatdırılması, məhz Onun titanik fəaliyyətinin nəticəsidir.

### Xalqın etimadını Ondan başqa heç kim doğrulda bilməzdi

Belə bir dahi insanın Azərbaycanda rəhbərliyə başlaması respublikanın xilası üçün yeganə düzgün yol idi. Beləliklə, o zamankı Azərbaycan KP MK-nın 1969-cu il 14 iyul tarixli plenumunda Heydər Əlirza oğlu Əliyev Birinci Katib seçildi. Həmin plenumdakı çıxışında, O, özünün fəaliyyət platformasını çox konkret şəkildə ifadə etdi: "Mənə təzəcə tapşırılan bu vəzifənin bütün məsuliyyətini dərk edirəm. Qarşıma qoyulan öhdəliklərin çətinliyini, ağırlığını anlayıram və var qüvvəmlə çalışacağam ki, mənə göstərilən etimadı doğruldum... Mənə elə gəlir ki, bizim gələcək uğurlarımızın rəhni yalnız aktiv, birgə zəhmət ola bilər".



1969-cu ildən başlanan böyük quruculuq və yüksəliş mərhələsi, qısa müddətdə, Azərbaycanı bütün sahələrdə geniş tərəqqi yoluna çıxardı. Azərbaycanda Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyəti dövründə (1969-1982) sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılmış, qüdrətli maddi-texniki baza yaradılmış, əhalinin rifahı xeyli yüksəlmiş, elm, təhsil, mədəniyyət güclü inkişaf prosesi keçmiş, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görüldü. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə sənayedə 581 adda yeni tipli maşın, avadanlıq, aparat, cihaz nümunələri yaradılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş sex, istehsal sahəsi və i.a. yaradılmışdır. 1970-ci ildən başlayaraq, Azərbaycan sənaye məhsulunun artım sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl mövqeyə çıxmışdı. Respublikada kənd təsərrüfatı və onun xammalını emal edən sahələr böyük sürətlə inkişaf edirdi. 1970-1982-ci illərdə kənd təsərrüfatı məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdı. Bütün bunlar inkişafın ümumiləşdirilmiş göstəricisi olan milli gəlirin sürətlə artmasına səbəb oldu.

Eyni zamanda, Azərbaycan dilinin dövlət dili kimi konstitusiya səviyyəsində rəsmi status qazanması da dahi rəhbərin qətiyyəti, siyasi iradəsi hesabına gerçəkləşdi. Möhtəşəm fəaliyyəti ilə şöhrətlənən dahi Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. Moskvaya getməzdən əvvəl, 1982-ci il dekabrın 2-də Azərbaycan KP MK-nın büro iclasında Ulu Oöndər respublikaya on üç il yarımlıq rəhbərlik dövrünün yekunlarını məmnunluqla, fəxrlə ümumiləşdirərək demişdi: "Bu illər ərzində böyük işlər görülüb, respublika böyük uğurlar əldə edib. Biz uzunmüddətli geriləməni qısa müddətdə aradan qaldırmağa nail olmuşuq. Respublikamız Ümumittifaq miqyasında ən qabaqcıl mövqelərdədir... Respublikada çox gözəl, sağlam mənəvi-siyasi, mənəvi-psixoloji atmosfer hökm sürür, sözün qısası, bizim respublika yüksəklərə, çox yüksəklərə qalxıb". Bütün bunlar isə, 1969-cu il iyulun 14-dən başlanan şanlı Heydər Əliyev epoxasının vüsət və əzəmətinin parlaq təzahürü idi.

### Təməli Naxçıvanda qoyulan dövlətçilik siyasətinin başlanğıcı

1982-87-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışan görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanı bir an da unutmamış, bütün imkanlarını, gücünü və bacarığını respublikamızın tərəqqisinə yönəltmişdi. Aydın, yetkin siyasi mövqeyə, böyük vətəndaş qeyrətinə malik Ulu Öndər Heydər Əliyev Bakıda da, Moskvada da zaman-zaman Azərbaycanın əleyhdarlarının təzyiqləri ilə üzləşmiş, lakin heç bir qüvvə Onu haqq yolundan, xalqa və yurda fədakar xidmət amalından döndərə bilməmişdi. 1987-ci ildə tutduğu yüksək vəzifədən istefa verəndə də, Heydər Əliyev öz siyasi iradəsinin və mövqeyinin dəyişməzliyini bir daha nümayiş etdirdi. 1990-cı ilin yanvarında sovet qoşun hissələrini Bakıya yeridib, dinc əhaliyə qanlı divan tutan imperiya rəhbərliyinə də ilk kəskin etiraz səsini məhz Ulu Öndər Heydər Əliyev ucaltdı. 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iki gün sonra isə, Naxçıvana gələn qeyrətli Vətən oğlu əhali tərəfindən böyük məhəbbətlə qarşılandı. Həmin vaxt Naxçıvan son dərəcə acınacaqlı bir şəraitdə yaşayırdı. Belə bir vaxtda Ulu Öndər Heydər Əliyevin Naxçıvana qayıdışı xalqın əsl nicatına çevrildi. 1990-cı il sentyabrın 30-da keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentlərinə mandat qazanan Ulu Öndər xalqın təkidli tələbi ilə 1991-ci il sentyabrın 3-də muxtar respublikada ali vəzifəyə dəvət olundu. Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun qeyd etdiyi kimi, "Ümumi Azərbaycan evimizin divarından hər gün bir kərpic düşdüyü vaxt Naxçıvan Muxtar Respublikasının əhalisi çox böyük uzaqgörənlik nümunəsi göstərərək, Heydər Əliyevi Naxçıvan Muxtar Respublikasının rəhbəri seçdi".

Fəaliyyətinin Naxçıvan dövründə Ümummilli Lider Heydər Əliyev ölkəmizin ən nüfuzlu, qüdrətli, mütəşəkkil, kütləvi siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasını yaratdı, qısa müddətdə, bu partiya xalqın maraqlarının əsl ifadəçisi və müdafiəçisinə çevrildi. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini elan etsə də, çox keçməmiş, ağır problemlər burulğanına yuvarlanırdı.

### Azərbaycanı bəlalardan qurtaran ikinci böyük qayıdış

O zaman ölkəyə başçılıq edən təsadüfi şəxslərin bacarıqsızlığı, səbatsızlığı, ağılsız addımları ağır nəticələrə gətirib çıxarmışdı. Ölkə daxilində iqtisadi islahatlar aparılmamış, əksər müəssisələr fəaliyyətini dayandırmış, əhalinin maddi durumu pisləşmiş, siyasi arenada hərc-mərclik, başıpozuqluq meyilləri baş qaldırmış, demokratik dəyərlərin təşəkkülü istiqamətində heç bir iş görülməmişdi. Cənubda qondarma "Talış-Muğan Respublikası", şimalda "Sadval"çıların "Ləzgistan" xülyaları, Qarabağda erməni işğalı, Gəncəbasarda Surət Hüseynovun başçılıq etdiyi silahlı qiyamçıların əməlləri ölkənin ərazi bütövlüyünə və suverenliyinə ciddi təhlükə yaratmışdı. Belə bir vaxtda xalq yeganə düzgün, ağıllı yolu seçdi - dünya şöhrətli siyasi xadim, müdrik dövlət adamı Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə dəvət etdi. 1993-cü il iyunun 9-da xalqın tələbi ilə Ulu Öndər Heydər Əliyev gərgin situasiyada yaşayan Bakıya gəldi. On minlərlə vətəndaş Bakı Hava Limanına axışaraq, öz müdrik xilaskarını qarşıladı. 1993-cü il iyunun 15-də xalqın qətiyyətli istəyi gerçəkləşdi. Heydər Əliyev Azərbaycan Respublikasının Milli Məclisinə Sədr seçildi. 1993-cü il oktyabrın 3-də xalqın böyük dəstəyi ilə Prezident seçilən Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi on il müddətində (1993-2003-cü illər) neçə-neçə qərinəyə sığmayan son dərəcə böyük işlər gördü. Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci rəhbərlik dövrü müstəqil dövlət quruculuğu prosesinin hərtərəfli şəkildə və böyük uğurla həyata keçirilməsi ilə səciyyələnir. "Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti - dövlət müstəqilliyimizi biz daima qoruyub-saxlayacağıq" - deyən Ümummilli Lider bu tarixi nailiyyətin, milli istiqlalımızın qorunub-saxlanması və möhkəmləndirilməsi üçün misilsiz işlər gördü, sinəsini sipər edib, Vətəni və xalqı bəlalardan qorudu, xilas etdi. Dahi rəhbərin müdrik siyasəti nəticəsində ölkədəki özbaşınalıq, anarxiya aradan qaldırıldı, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanıldı, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi, Qarabağ münaqişəsinin ədalətli həlli, haqq işimizin dünyada tanıdılması istiqamətində mühüm tədbirlər gerçəkləşdi. Xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan kontraktın imzalanması, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi istiqamətində görülən nəhəng işlər, ölkəmizin beynəlxalq təşkilatlarda layiqincə təmsil olunması, onun mənafelərinin əzmlə qorunması, müstəqil Azərbaycanın hüquqi-demokratik prinsiplərə əsaslanan konstitusiyasının qəbulu, mənəvi dəyərlərin müdafiəsi, mədəni dirçəlişə böyük qayğı, iqtisadiyyatın əsaslı şəkildə yenidən qurulması, bazar münasibətlərinin tənzimlənməsi, aqrar islahatın müvəffəqiyyətlə aparılması, ümumi daxili məhsulun ciddi artımı, dünya azərbaycanlılarının həmrəyliyinin formalaşdırılması, xaricdə yaşayan soydaşlarla sıx əlaqələrin təşəkkülü, minlərlə yeni iş yerlərinin yaradılması, əhalinin maddi rifah halının əsaslı şəkildə yaxşılaşdırılması, bir sözlə, müstəqil Azərbaycanın sosial, siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində ciddi, hərtərəfli, möhtəşəm yüksəlişin baş verməsi Ulu Öndər Heydər Əliyevin qlobal fəaliyyətinin saysız-hesabsız bəhrələrindəndir. Bəli, Dahi Öndər Heydər Əliyev Azərbaycanı Azərbaycana qaytardı, müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi, son dərəcə məsuliyyətli və şərəfli bir missiyanı yüksək səviyyədə yerinə yetirdi.

Müstəqilliyin yolları ilə inamla irəliləyən Azərbaycanda Ulu Öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır. 2003-cü ildən ölkəmizə rəhbərlik edən Cənab İlham Əliyev bu məsuliyyətli vəzifəni üzərinə götürərkən, bəyan etmişdir ki, bütün fəaliyyətini Heydər Əliyev siyasəti, insana qayğı və diqqət üzərində quraraq, sosialyönümlü siyasət həyata keçirəcəkdir. Görülən işlər ölkəmizi günü-gündən irəliyə aparır. Artıq Azərbaycan bu gün regionda söz sahibi olan və iqtisadi qüdrətinə görə dünyanın aparıcı dövlətləri sırasına çıxan ölkədir. Bu, 1969-cu ildən başlanan Azərbaycanı Azərbaycana qaytarmaq yolunun real bəhrəsidir.

# Milli Məclisin növbədənkənar sessiyası başa çatıb

***Dünən Spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının sonuncu plenar iclası keçirildi. Gündəliyə 28 məsələ daxil idi. Gündəlikdəki məsələlərin müzakirəsinə keçməzdən əvvəl Milli Məclisin Sədri Oqtay Əsədov parlamentin ATƏT PA-dakı nümayəndə heyətinə qurumun 28-ci illik sessiyasında yüksək səviyyədə fəaliyyət göstərdiklərinə görə təşəkkürünü bildirdi.***




Sonra Milli Məclisin Sədr müavini, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova həmin sessiyanın gedişi və qəbul olunan sənədlər barədə millət vəkillərinə ətraflı məlumat verdi. Bildirdi ki, ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyası "Təhlükəsizliyin təmin olunması üçün dayanıqlı inkişafın gücləndirilməsi: Parlamentlərin rolu" mövzusuna həsr olunmuşdu. Nümayəndə heyəti sessiyaya geniş spektrli hazırlıq mərhələsində əsas hədəfləri müəyyənləşdirmişdi.

ATƏT PA-nın Siyasi işlər və təhlükəsizlik komitəsində qəbul olunan qətnamənin siyasi əhəmiyyətindən bəhs edən vitse-spiker vurğuladı ki, Azərbaycan nümayəndə heyətinin səyləri nəticəsində həmin sənədin layihəsində regionda münaqişələrin həlli üçün tamamilə yeni yanaşmalar öz əksini tapdı, mövcud münaqişələrin dayanıqlı inkişaf və insan hüquqlarının təmini üçün əsas maneə olduğu xüsusi qeyd edildi. Belə ki, ATƏT və digər beynəlxalq təşkilatların ənənəvi yanaşmasından fərqli olaraq ilk dəfə Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova ərazisində olan münaqişələrə eyni yanaşmanın tətbiq olunmasının vacibliyi sənəddə öz əksini tapdı. Sessiyada iştirak edən Ermənistan nümayəndə heyəti Azərbaycanın adının bu siyahıdan çıxarılması üçün çox ciddi qarşıdurmalar nümayiş etdirdi, lakin Ermənistanın təklifi 6 lehinə, 47 əleyhinə olmaqla böyük səs çoxluğu ilə rədd edildi.

Bahar Muradova sessiyanın Yekun Bəyannaməsində əksini tapan müddəaları da diqqətə çatdırdı. Bildirdi ki, həmin sənəddə nəzərdə tutulur ki, ATƏT PA və üzv ölkələr bütün məsələlərə münasibətdə suveren bərabərlik, güc tətbiqinin yolverilməzliyi, sərhədlərin toxunulmazlığı, ölkələrin ərazi bütövlüyü, mübahisələrin sülh yolu ilə həlli, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq hüququn vicdanla yerinə yetirilməsi və ölkələr arasında əməkdaşlıq prinsiplərinə uyğun çalışmalıdırlar. Qeyd etdi ki, bu səpkidə çalışmalar çağırış idi və sənədin əsas ruhunu ifadə edirdi, sənəddəki bütün məsələlər Azərbaycanın maraqları daxilindədir.

Azərbaycan nümayəndə heyətinin sessiyadakı daha bir uğurunu vurğulayan Bahar Muradova ATƏT PA-nın vitse-prezidenti Azay Quliyevin yenidən 2022-ci ilədək bu vəzifəyə seçildiyini qeyd etdi.

ATƏT PA-nın sessiyası ilə əlaqədar məlumat dinlənildikdən sonra plenar iclasda gündəlikdəki məsələlərin müzakirəsi başlandı. Qanun layihələrini Milli Məclis Sədrinin birinci müavini, Təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov, Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı təqdim etdilər.

Öncə üçüncü oxunuşda parlamentin müzakirəsinə verilmiş 19 məsələyə baxıldı. Qanun layihələri barədə məlumatlar dinlənildi və münasibət bildirildi.

Deputatlar "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında", "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" qanunlarda bütövlükdə cəmiyyət tərəfindən müsbət qarşılanmış dəyişiklikləri təsdiqlədilər.

Sonra parlament "Məhkəmələr və hakimlər haqqında" Qanunda və Vergi Məcəlləsində dəyişikliləri qəbul etdi. "Dövlət satınalmaları haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişikliyə dair layihələr də ayrı-ayrılıqda səsə qoyuldu və qəbul olundu.

Plenar iclas Su Məcəlləsində, Mənzil Məcəlləsində və Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Avtomobil nəqliyyatı haqqında", "Publik hüquqi şəxslər haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlarda dəyişikliklər edilməsinə müsbət münasibət bildirdi. Əmək Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər məqsədəuyğun sayıldı.

İclasda "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə məsələ səsverməyə yolu ilə qəbul olundu.

Deputatlar İnzibati Xətalar və Gömrük məcəllələrində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" qanunlarda edilən dəyişikliyə dair məsələni qəbul etdilər. "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunlarda edilən dəyişikliyə razılıq verdilər.

Sonra Milli Məclis Azərbaycan Hökuməti ilə Monteneqro Hökuməti arasında fövqəladə hallar sahəsində əməkdaşlığa dair bu il mayın 3-də Bakıda imzalanmış Sazişi ratifikasiya etdi. Birinci vitse-spiker Ziyafət Əsgərov vurğuladı ki, Saziş Azərbaycanın milli maraqlarına tam cavab verir.

İclasda "Antikorrupsiya Orqanlarının və Ombudsmanların əməkdaşlığı üçün İqtisadi Əməkdaşlıq Təşkilatının Regional Mərkəzinin (RCCACO) Nizamnaməsi" təsdiqləndi.

Komitə sədri Əli Hüseynli parlamentə məlumat verdi ki, 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri 2020-ci ildən 2022-ci ilə dəyişdirilir. Bununla əlaqədar olaraq 7 digər qanunda həmin dəyişikliyin tətbiq olunması nəzərdə tutulur.

Deputatlar həmin qanunu qəbul etdilər. Sonra iclasda birinci oxunuşda müzakirəyə təqdim olunmuş qanun layihələrinə baxıldı.

Milli Məclisə bir zərfdə daxil olmuş iki qanun layihəsini şərh edən Əli Hüseynli bildirdi ki, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında" qanunlarda və Mülki Məcəllədə edilən dəyişikliklər texniki xarakter daşıyır. Belə ki, notariat hərəkətlərinin aparılması sahəsində yeni müasir texnologiyaların tətbiqi ilə əlaqədar həmin qanuna "elektron notariat informasiya sistemi" ifadəsi əlavə olunur və beynəlxalq təcrübəyə uyğun olaraq sənəddəki "notariat kontoru" anlayışı "notariat ofisi" anlayışı ilə əvəz edilir. Nəzərə çatdırıldı ki, İnzibati Xətalar Məcəlləsinə əlavə olunan 391-1-ci maddəyə əsasən, fəaliyyətinə xitam verilmiş xüsusi notarius tərəfindən aparılmış notariat hərəkətləri barədə sənədlər 1 ay müddətində dövlət notariat arxivinə təhvil verilməlidir, əks təqdirdə 300 manatdan 500 manatadək məbləğdə cərimə tətbiq olunacaq.

Millət vəkilləri bu qanunların birinci oxunuşda qəbulunu məqsədəuyğun saydılar.

İclasda "Azərbaycan Respublikası Dövlət bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Konstitusiya qanununun icrası məqsədilə "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" və "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə məsələyə baxıldı və qanun layihəsi birinci oxunuşda qəbul olundu. Gündəlikdəki növbəti 3 qanun layihəsi Milli Məclisə bir zərfdə daxil olmuşdu. Onlardan ikisini şərh edən komitə sədri Aqiyə Naxçıvanlı bildirdi ki, "Uşaq hüquqları haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" və "Təhsil haqqında" qanunlarda, həmçinin "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" qanunlarda nəzərdə tutulan dəyişikliklər 2018-ci il dekabr ayının 7-də qəbul olunmuş "Psixoloji yardım haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyır.

Deputatlar həmin qanunları birinci oxunuşda müzakirə və qəbul etdilər.

Gündəliyin son məsələsinin təqdimatında nəzərə çatdırıldı ki, Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində edilən dəyişiklik isə "Psixoloji yardım haqqında" Qanunun icrası ilə əlaqədardır. Həmin qanunun 19.3-cü və 20.1-ci maddələrində müəyyən edilən qadağaların pozulmasına, habelə şəxsi psixoloji yardım almağa məcbur etməyə görə inzibati məsuliyyət müəyyənləşdirilir.

Məsələ səsə qoyuldu və bu qanun layihəsinin birinci oxunuşda qəbul edilməsi məqsədəuyğun sayıldı.

Müzakirələrdə vitse-spiker Valeh Ələsgərov, deputatlar Qüdrət Həsənquliyev, Azay Quliyev, Zahid Oruc, Siyavuş Novruzov, Məlahət İbrahimqızı, Bəxtiyar Əliyev, Aqil Abbas rəy və təkliflərini bildirdilər. Milli Məclisin deputatlarını "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlıq hissi ifadə olundu, təşəkkür ünvanlandı. Bununla da Milli Məclisin növbəti iclası başa çatdı. Spiker növbədənkənar sessiyasını bağlı elan etdi. Azərbaycanın dövlət himni səsləndirildi.

***Rəfiqə Kamalqızı***

# Azərbaycanın özünə qayıdış günü!

Hər bir xalqın tarixində elə hadisələr olur ki, onlar zaman-zaman, əsrlər keçsə də daima xatırlanır, minnətdarlıq hissi ilə yad olunur. 50 il bundan əvvəl Azərbaycanın, onun xalqının həm tarixində, həm də taleyində əhəmiyyətli dönüş başladı. Əlli il bundan əvvəl, iyulun 14-də Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi haqqında qərar ictimai düşüncədə və fərdi düşüncədə respublikanın dəyişilməsinə ehtiyacın dərk edilməsi ilə üst-üstə düşdü. O zaman Azərbaycan, sözün əsl mənasında, böyük yeniliklərə və inkişafa ehtiyac duyurdu. Ulu Öndərin Azərbaycana rəhbər seçilməsindən sonrakı illərdə Azərbaycan, sözün əsl mənasında, ciddi şəkildə dəyişməyə başladı. Respublikanın sosial-iqtisadi və elmi-mədəni həyatında olduqca böyük yeniliklərə imza atıldı. Bütün bunların canlı şahidi olaraq, o zamankı quruculuq və inkişaf işləri yaddaşıma əbədi həkk olub.

Söhbət təkcə Azərbaycanın iqtisadiyyatının, o cümlədən, sənayenin və kənd təsərrüfatının, qısa bir zaman ərzində, əhəmiyyətli dərəcədə dirçəldilməsindən getmir. Əsas məsələ, bütövlükdə, Azərbaycanın milli-mənəvi dəyərlər sisteminin dəyişməsində ifadə olunan yeniliklərdə idi. Məhz bu yeniliklər xüsusi əhəmiyyət, daha böyük məna kəsb edirdi. Əgər mənəvi sahəni əhatə edən dəyişikliklər olmasaydı, o zamankı cəmiyyəti içəridən sarsıdan, dağıdan səbəblər aradan qaldırılmasaydı, yəqin ki, qısa müddətdə, Azərbaycan sürətlə inkişaf edə bilməzdi.

Tarixdən aydındır ki, 1969-cu ildə Heydər Əliyev rəhbər seçiləndə, Azərbaycan o zamankı SSRİ-nin ən geridə qalmış respublikası idi. Sosial-iqtisadi sahədə ciddi geriləmə müşahidə olunurdu. Ulu Öndərin rəhbər seçilməsindən az sonra, respublikanın ilk iqtisadi göstəriciləri, əsl möcüzəyə bənzəyirdi. Belə ki, 1971-ci ildə Azərbaycan inkişafın sürətinə görə, SSRİ-də ən qabaqcıl bir respublikaya çevrildi. Əlbəttə, mənəviyyatı, mənəvi-psixoloji mühiti, insana münasibəti dəyişmədən, insanın həm cəmiyyətə, həm də ölkəyə və rəhbərliyə münasibətini dəyişmədən bu qədər sürətli inkişafı təmin etmək mümkün olmazdı. Ona görə də, Ulu Öndər Heydər Əliyev 50 il bundan əvvəl Azərbaycana rəhbər seçiləndə, qarşıda başlıca vəzifə kimi, ilk növbədə, Azərbaycan xalqının mənəviyyatının, mənəvi dəyərlərinin, ölkənin mənəvi-psixoloji mühitinin ciddi surətdə dəyişdirilməsi dururdu. Cavan, qətiyyətli və enerjili lider bu vəzifənin öhdəsindən layiqincə gəldi.



*Şirvan Əbilov,*
*Prezident təqaüdçüsü*

Böyük tarixi şəxsiyyətlərə zaman özü həmişə ehtiyac duyur və respublikamızın Heydər Əliyevə ehtiyacı olanda, O, bu tarixi missiyanı öz üzərinə götürərək, Azərbaycanda siyasi rəhbərliyə gəldi. Beləliklə, 1969-cu ildə əsası qoyulan yol, müəyyənləşdirilən siyasət Azərbaycana, onun uğurlu inkişafına xidmət etdi. Onun respublikaya rəhbər seçilməsindən sonra, 1970-ci illərdə Azərbaycan Sovetlər Birliyinin ən dinamik inkişaf edən respublikası imicini və adını qazandı. İndi isə məmnunluq hissi ilə deyirik ki, Ulu Öndər Heydər Əliyevin memarı və qurucusu olduğu müasir, müstəqil Azərbaycan dövləti bütün dünyada ən dinamik iqtisadiyyatı olan, ən böyük sürətlə inkişaf edən dövlət kimi tanınmışdır. Bu, onu göstərir ki, dahi öndərin Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət, yol bütün ideoloji çərçivələrdə əhəmiyyətli dəyişikliklərin baş verməsinə baxmayaraq, xalqımıza, Vətənimizə xidmət edib və bu gün də xidmət etməkdədir.

1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsindən sonra Odlar Diyarı əsl yenilik və inkişaf erasına qədəm qoydu. Diqqət edin: keçmiş SSRİ-də Azərbaycanın neçə-neçə yazıçı, şair, bəstəkar, rəssam və memarı Ulu Öndərin böyük səyləri nəticəsində, ən yüksək ada - Sosialist Əməyi Qəhrəmanı adına, eləcə də, SSRİ Dövlət mükafatına layiq görüldü. Ulu Öndər Heydər Əliyev çalışırdı ki, ədəbiyyat və mədəniyyət sahəsində Azərbaycanın nüfuzunu qaldırsın. Böyük şəxsiyyət Heydər Əliyev 70-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə bugünkü müstəqil Azərbaycanın iqtisadi, sosial və elmi-texniki potensialının hazırlanması böyük uzaqgörənliklə həyata keçirirdi. Məhz bunun nəticəsidir ki, SSRİ dağıldıqdan sonra iqtisadi əlaqələrin birdən-birə kəsildiyi şəraitdə Azərbaycan yaşaya bildi və uğurla dünya iqtisadi inteqrasiyasına qoşuldu. Ulu Öndərin təşəbbüsü ilə 1970-80-ci illərdə keçmiş İttifaqın ən nüfuzlu təhsil ocaqlarına göndərilən yüzlərlə, minlərlə gənc indi müstəqil respublikamızda ən mürəkkəb siyasi, iqtisadi və mənəvi problemlərin həllində öndə gedir.

Bir sıra tarixçilər və siyasətşünaslar, haqlı olaraq, qeyd edirlər ki, Azərbaycan xalqının iyirminci əsrdəki milli qurtuluşu, əslində, 1969-cu il iyulun 14-dən başlanır. Çünki həmin tarixdə siyasi hakimiyyətə gələn görkəmli dövlət xadimi Heydər Əliyev, sözün həqiqi mənasında, xalqın həyatında möhtəşəm dəyişikliyə və misilsiz inkişafa nail oldu. Ulu Öndər Heydər Əliyev o dövrü belə xarakterizə edirdi: “Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı, bütövlükdə, dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib-hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi”.

1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilmişdir. Müstəqilliyə qovuşmaq məqsədilə reallaşdırılan həmin tədbirlər nəticəsində, 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində, Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdır. Moskvanın, eləcə də, keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilmişdir. Bu, Ümummilli Lider Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi.

Sonralar həmin dövrdə həyata keçirdiyi tədbirlərdən danışan Ulu Öndər Heydər Əliyev demişdir: “Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur”.

1970-ci ildə mütəxəssislər qeyd edirdilər ki, son 100 ildə 1 milyard ton neft istehsal etmiş, Böyük Vətən Müharibəsi illərində SSRİ-nin neftə olan ehtiyacının 75 faizini vermiş Azərbaycanın neftayırma zavodları hələ çar dövründə inşa edildiyinə görə müasir tələblərlə ayaqlaşmır. Bu məqamdan məharətlə istifadə edən Ulu Öndər SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldırmış və Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, bir çoxunun isə yenidən tikilməsinə nail olmuşdur. Bununla yanaşı, 70-ci illərdə Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda və Xankəndidə bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verilmişdir. 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin, bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanmışdı.

Bir həqiqət mövcuddur ki, Azərbaycan var olduqca, Ulu Öndər Heydər Əliyevin adı da onunla bir yerdə çəkiləcək, nə qədər ki, Azərbaycan xalqı Heydər Əliyev yoluna sadiqdir, Azərbaycan da yüksələcək, ucalacaq və dünyanın ən zəngin, qüdrətli və firavan ölkəsi, Heydər Əliyevin şah əsəri kimi özünü daim təsdiqləyəcəkdir. Biz həmişə Heydər Əliyevlə - bu dahi insanla fəxr etmişik. Azərbaycanın qürur mənbəyi Heydər Əliyevdir, onun qurub-yaratdığı müstəqil dövlətimizdir, bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Möhtərəm Prezidentimiz İlham Əliyevdir. Ulu Öndərimiz daima qəlblərdə yaşayacaq, Heydər Əliyev yolu daim yaşayacaqdır!

# 14 iyul 1969-cu il - Azərbaycanın milli dövlətçilik tarixində dönüş nöqtəsi





Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatı Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyinə həsr edilmiş tədbir keçirib.

Tədbiri giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva Ümummmilli Liderimiz Heydər Əliyevin 50 il əvvəl Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə bağlı çıxış edərək deyib ki, 1992-ci ildə uçurum kənarında olan ölkəmizi, yalnız Ulu Öndər Heydər Əliyevin xilas edə biləcəyini başa düşən bir qrup vətənpərvər şəxs öz həyatı üçün yarana biləcək heç bir təhlükədən qorxmayaraq Naxçıvana yığışıb, məhz Heydər Əliyevin rəhbərliyi ilə Yeni



Azərbaycan Partiyasını yaratdı: “Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq, zəruriyyətdən yaranmış bir partiyadır. Qısa bir vaxt ərzində Yeni Azərbaycan Partiyası xalqın böyük əksəriyyətinin etimadını qazandı və güclü təşkilati struktur yaradaraq, böyük siyasi qüvvəyə çevrildi. Bu gün Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi təşkilatları içərisində istər kəmiyyətcə, istərsə də keyfiyyətcə bərabəri olmayan bir partiyadır. Sınaqlardan çıxmış, böyük və şərəfli yol keçmiş Yeni Azərbaycan Partiyası cəmiyyətdə özünəməxsus aparıcı yer tutmuşdur.”

Daha sonra çıxış edənlərdən YAP Sabunçu rayon təşkilatının sədr müavini Bəxtiyar Qasımov, 72 saylı məktəb-liseyinin direktoru, ərazi ilk partiya təşkilatının sədri Fərqanə Abbasova, 169 saylı tam orta məktəbin direktor müavini Fərman Əmirov və başqaları öz çıxışlarında qəti əminliklə bildiriblər ki, Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yolun başlanğıcı, məhz 1969-cu ildən - Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən hesablanır. Həmçinin, bildirişlər ki, Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu inkişaf strategiyası bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

***R.HÜSEYNOVA***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 iyul 2019-cu il

# Müstəqillik yolunun astanası -14 iyul 1969-cu il

## *1969-cu ildə Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərliyinin ilk illərində qazandığı uğurlarla xalqını və dövlətini sevən rəhbər olduğunu sübuta yetirdi*

***Faktlar və reallıqlar təkzibolunmazdır. Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəldiyi 14 iyul 1969-cu il xalqımızın tarixi taleyində misilsiz rola malikdir. Bu tarixi gün həmişə xatırlanır və heç vaxt da unudulmayacaq. Tarixçilər, tədqiqatçılar və siyasətçilər də təsdiq edir ki, Ulu Öndərimiz Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, respublikamızı müstəqil dövlət quruculuğuna aparan yolun başlanğıcı idi. 1970-ci illərdən başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, özünüdərk və milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli-azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə mühüm zəmin yaratdı.***

1969-cu ildə Heydər Əliyev respublikaya rəhbərliyinin ilk illərində, qazandığı uğurlarla xalqını və dövlətini sevən rəhbər olduğunu sübuta yetirdi. Fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti ilə Azərbaycanı cəmi bir neçə ilə dinamik inkişaf yoluna çıxarmağa müvəffəq oldu. İdarəçilikdə mütərəqqi yeniliklərin tətbiqi və milli kadrların önə çəkilməsi yolu ilə cəmiyyətin normal inkişaf ahəngini təmin etdi. Faktlara istinadən demək olar ki, 50 il bundan əvvəl - 1969-cu ilin iyulunda Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəldiyi dövrdə, Azərbaycan SSRİ-nin müttəfiq bir respublikası kimi, iqtisadi baxımdan ittifaq miqyasında digər respublikalardan geri qalırdı. Xüsusi ilə də, Azərbaycan iqtisadiyyatının ənənəvi sahəsi olan kənd təsərrüfatı böhran vəziyyətində olmaqla, ölkəmiz əsas göstəricilər üzrə müttəfiq respublikalar arasında sonuncu yerlərdən birini tuturdu. Belə ki, kənd təsərrüfatı sahəsində məhsuldarlıq aşağı idi, aqrar məsələlərin həllində elmi nailiyyətlərdən çox zəif istifadə edilirdi, bu sahədə demək olar ki, yüksək ixtisaslı kadrlar hazırlanmırdı. Ümummilli Liderin uzaqgörən və müdrik siyasəti nəticəsində, Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı, o cümlədən, pambıqçılıq və üzümçülük respublikasına çevrilmişdi. Respublikamızın hər yerində quruculuq, abadlıq işləri həyata keçirildi, rayonlarımıza gözəllik verən yüzlərlə yaşayış binası, mehmanxana, ölkə iqtisadiyyatında mühüm rol oynayan iri istehsal kompleksləri, su anbarları, yaşıllıq zonaları, istirahət ocaqları salınaraq, istifadəyə verildi. Bütün bu uğurlu islahatlar Dahi Öndər Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsi idi. Ümummilli Liderimiz Heydər Əliyev sonralar o illəri xatırlayarkən demişdir: “1970-ci illərdə görülən işlər, yaradılan bu böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən, məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən, mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır”.

### Azərbaycan aqrar ölkədən inkişaf edən sənaye ölkəsinə çevrildi

O zaman Dahi Öndərimiz Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində, qısa zaman kəsiyində, Azərbaycan aqrar ölkədən gündən-günə inkişaf edən sənaye ölkəsinə çevrildi. Belə ki, 1980-ci ildə sənaye məhsulu istehsalının həcmi 1970-ci ilə nisbətən 2,9 dəfəyə qədər artdı. Maşınqayırma sənayesində istehsalın həcmi 5,3 dəfə, kimya və neft-kimya sənayesində 3 dəfədən çox, yeyinti sənayesində isə 4 dəfədən çox artmışdı. Sənayenin struktur quruluşunda maşınqayırma kompleksinin xüsusi çəkisi 1960-cı ildəki 5,1 faizdən 1982-ci ildə 16,4 faizə, kimya və neft-kimya, meşə sənayesi kompleksi, müvafiq olaraq, 4,1 faizdən 8,7 faizə, tikinti materialları sənaye kompleksi 2,7 faizdən 3,2 faizə, yeyinti sənayesi kompleksi 2 dəfədən çox artdı.

Sənaye ilə yanaşı, ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən kənd təsərrüfatı da inkişaf etdirilirdi. Əkinçiliyin ayrı-ayrı sahələri - pambıqçılıq, taxılçılıq, üzümçülük, tütünçülük, bağçılıq, bostan və tərəvəz, eləcə də, heyvandarlıq məhsullarının istehsalı 1982-ci ildə 1969-cu illə müqayisədə 2,5 dəfədən çox artmışdı. Ulu Öndər Heydər Əliyev ölkədə elmin və təhsilin yüksəlməsinə, yeni ali məktəblərin və ali məktəblərdə yeni ixtisasların açılmasına, Azərbaycan gəncinin mükəmməl bilik və ixtisas alaraq, cəmiyyətin fəal üzvünə çevrilməsinə hər cür şərait yaratdı. Çox təəssüflər olsun ki, Dahi Öndərimiz Heydər Əliyevin böyük zəhməti hesabına qurub-yaratdıqlarını, Azərbaycan müstəqillik əldə etdikdən sonra hakimiyyətə gələn AXC-Müsavat cütlüyü tamamilə dağıtdı. Bu baxımdan, demək olar ki, 1992-1993-cü illər Azərbaycan tarixinin ən ağır və keşməkeşli illəri olub. Amma yenə də, bu ağır günlərdə Dahi Öndər Heydər Əliyev xalqın yanında oldu, respublikamızı düşdüyü çətin vəziyyətdən çıxarmağa müvəffəq oldu. Əgər 1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidi ilə Naxçıvandan Bakıya gəlməsəydi və ikinci dəfə Azərbaycana rəhbərlik etməyi öz üzərinə götürməsəydi, bu gün dünyanın siyasi xəritəsində Azərbaycan Respublikası adlı dövlətin mövcudluğu mümkün olmayacaqdı. Dahi Öndər Heydər Əliyev iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib hesab edirdi. Ulu Öndərin ölkə iqtisadiyyatının hərtərəfli inkişafı üçün neft amilindən məharətlə istifadə etməsi, 1994-cü ilin sentyabrında böyük təzyiqlərə baxmayaraq, “Əsrin müqaviləsi”nin imzalanmasına nail olması yüksək siyasi iradənin və qətiyyətin təntənəsi idi. Bu saziş, həmçinin, Azərbaycanın qapılarını bütün dünyanın üzünə açdı, bu sahədə yeni müqavilələrin imzalanmasını və ölkəyə investisiya qoyuluşunu təşviq etdi. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə ixrac marşrutlarının diversifikasiyasına nail olundu.



**Fərrux Haqverdiyev, Yeni Azərbaycan Pariyası Xızı rayon təşkilatının sədri**

### Ulu Öndərin əsasını qoyduğu siyasət uğurla davam etdirilir

Tam qətiyyətlə və əminliklə qeyd etmək olar ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin fundamental prinsipini yaradıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: “Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Ulu Öndər Heydər Əliyev bizimlə deyil, ancaq Onun siyasəti yaşayır, Onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır”.

Azərbaycan dövlətinin söykəndiyi varislik prinsipi dövlət idarə modeli və iqtisadi modeldir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş, çevik və qətiyyətli siyasəti ilə bu modellər uğurla davam etdirilir. Ümummilli Liderin müstəqillik konsepsiyasının, sosial-iqtisadi inkişaf strategiyasının uzaqgörənliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı böyük uğurlarda bir daha tarixi təsdiqini tapır. Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyev ölkəmizin sürətli inkişafı üçün çox ciddi addımlar atır. Cənab Prezident Azərbaycanın iqtisadi inkişaf modelini daha yüksək səviyyəyə qaldırmışdır. Bu gün dünyanı bürüyən qlobal iqtisadi böhran şəraitində Azərbaycanın əldə etdiyi uğur və inkişaf göz önündədir. Bu uğurlar isə davam etdiriləcək. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətin prinsipi və önəmi bundan ibarətdir.

# 14 iyul 1969-cu il - xalqın taleyində dönüşün başlandığı gün

*YAP Şəmkir rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsinin 50 illiyinə həsr olunmuş tədbir keçirib*

YAP Şəmkir rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsinin 50 illiyinə həsr olunmuş tədbir keçirib. YAP Şəmkir rayon təşkilatının inzibati binasının akt zalında keçirilən tədbiri YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev Ulu Öndərin fəaliyyəti dövründə gördüyü işlər, Onun hakimiyyətə gəlişi ilə ölkəmizdə baş verən dəyişikliklərdən söz açıb. F.Vəliyev bildirib ki, 1969-cu ildə Heydər Əliyev rəhbər seçiləndə, Azərbaycan o zamankı SSRİ-nin ən geridə qalmış respublikası idi: “1971-ci ildə isə Azərbaycan inkişafın sürətinə görə SSRİ-də ən qabaqcıl bir respublikaya çevrildi. Əlbəttə, mənəviyyatı, mənəvi-psixoloji mühiti, insana münasibəti dəyişmədən, insanın həm cəmiyyətə, həm də ölkəyə və rəhbərliyə münasibətini dəyişmədən bu qədər sürətli inkişafı təmin etmək mümkün olmazdı. Ona görə də, Ulu Öndər Heydər Əliyev 50 il bundan əvvəl Azərbaycana rəhbər seçiləndə qarşıda başlıca vəzifə kimi, ilk növbədə, Azərbaycan xalqının mənəviyyatının, mənəvi dəyərlərinin, ölkənin mənəvi-psixoloji mühitinin ciddi surətdə dəyişdirilməsi dururdu. Ulu Öndər Heydər Əliyev qətiyyətli və enerjili olduğu üçün bu işlər uğurla həyata keçirildi”.

Tədbirdə Şəmkir Rayon Təhsil Şöbəsinin müdiri, YAP Şəmkir rayon təşkilatı sədrinin müavini Məcid Şıxlınski, Şəmkir şəhər İƏD üzrə nümayəndə Pərviz İbrahimov, YAP Şəmkir rayon təşkilatı sədrinin müavini, Düyərli kənd ərazi ilk partiya təşkilatının sədri



Aybəniz Nəsibova, Mərkəzi Xəstəxana ilk partiya təşkilatının sədri Abdulla Rzayev və digərləri Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə respublikaya rəhbərlik etməyə başladığı zaman Azərbaycanın iqtisadi cəhətdən inkişaf edən respublika kimi tanındığını qeyd ediblər. Çıxış edənlər vurğulayıblar ki, bu gün Ulu Öndərin uğurlu siyasəti Onun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**A.SƏMƏDOVA**

# 1969-cu il 14 iyul - Azərbaycanı uğurla gələcəyə aparan yol

***Müasir Azərbaycanın dönüş mərhələsini təşkil edən 14 iyul 1969-cu il milli tariximizə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir dövrün başlanğıcı kimi daxil olmuşdur. Azərbaycanın Memarı və Qurucusu Ulu Öndər Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın dinamik inkişafı, aparılan məqsədyönlü, daxili və xarici siyasəti bugünkü möhtəşəm uğurların təməlini qoydu. Xalqına, vətəninə sonsuz sədaqəti, məhəbbəti, uzaqgörənliyi, xeyirxahlığı, düşünülmüş və gərgin fəaliyyəti ilə Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni və mənəvi həyatında yeni bir tarix yaratdı.***



Nadir idarəçilik və liderlik keyfiyyətlərinə, fitri istedada, yüksək vətənpərvərlik hissinə malik olan Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. Bu gün Onun Azərbaycana rəhbərlik etdiyi dövrü vərəqlədikcə, Ulu Öndər Heydər Əliyev zəkasını, düşüncəsini, müdrikliyini və böyüklüyünü bir daha hiss edir, Ümummilli Liderin respublikamız və xalqımız üçün misilsiz xidmətlər göstərdiyinin şahidi oluruq. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanıldı. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində, respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq oldu.

### AZƏRBAYCAN XALQININ İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ HƏYATININ BÜTÜN SAHƏLƏRİNDƏ DİRÇƏLİŞ HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən Ulu Öndər Heydər Əliyev bütün bu illərdə Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində, Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş Onun adı ilə bağlıdır.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Ulu Öndər Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik, hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli mübarizə aparırdı.

### AZƏRBAYCAN NƏHƏNG BİR TİKİNTİ MEYDANINI XATIRLADIRDI

Dahi Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və sərişteli rəhbərliyi nəticəsində, Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən, qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı.

### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜSTƏQİL DÖVLƏTÇİLİYİMİZİ VƏ SUVERENLİYİMİZİ BÜTÜN TƏHLÜKƏLƏRDƏN VƏ TƏHDİDLƏRDƏN XİLAS ETDİ

XX əsrin sonlarında beynəlxalq aləmdə və Sovet İttifaqında yaranan əlverişli vəziyyət xalqımıza qəlbində yaşatdığı müstəqillik arzularını yenidən reallaşdırmaq imkanı verdi. 1991-ci ildə sovet imperiyasının süquta uğraması nəticəsində, digər müttəfiq respublikalar kimi, Azərbaycan da özünün dövlət müstəqilliyinə nail oldu. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də məhv olmasına gətirib çıxaracaqdı. Hakimiyyət çəkişmələrinin məntiqi nəticəsi kimi, cəbhədəki uğursuzluqlar və daxildə separatçı meyillərin güclənməsi dövlətçiliyimizin və müstəqilliyimizin məhvini qaçılmaz edirdi. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqının tələb və istəyi ilə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev müstəqil dövlətçiliyimizi və suverenliyimizi bütün təhlükələrdən və təhdidlərdən xilas etdi. Xalqın tarixinə iz salan 1993-cü il 15 iyun Azərbaycanın ictimai-siyasi və mədəni həyatında hadisəyə çevrildi. Həmin tarixi gün - Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda yeni tarixi dövrün əsası qoyuldu. Onun ölkə rəhbərliyinə qayıdışından sonra səmərəli dövlətçilik konsepsiyasına, iqtisadiyyatın dirçəlişi strategiyasına və azərbaycançılıq fəlsəfəsinin əsaslarına uyğun olaraq, demokratik keçid yoluna qədəm qoyuldu.

Beləliklə də, Ulu Öndər Heydər Əliyevin qayıdışı ilə xalqımızın Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin olunması kimi arzusu yerinə yetdi. Həm ideoloji, həm siyasi, həm sosial-iqtisadi, həm də mədəni sahələrdə ölkəmizdə köklü dəyişikliklər baş verdi. 15 iyundan ötən dövrdən Azərbaycan beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib, dünyada söz sahibi olan nüfuzlu dövlətə çevrildi. Təbii ki, bütün bunlar Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində əldə olundu.

### QLOBAL MİQYASDA NƏHƏNG NEFT KƏMƏRİ OLAN BAKI-TBİLİSİ-CEYHANIN ƏSASI QOYULDU

Ulu Öndər Heydər Əliyevin böyüklüyünü ifadə edən amillərdən biri də odur ki, O, mövcud vəziyyəti yetərincə qiymətləndirə bilmişdi. 1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Əlbəttə, "Əsrin Müqaviləsi"nin imzalanması tarixi hadisə və dönüş nöqtəsi idi. Azərbaycanın "Əsrin Müqaviləsi"ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

"Əsrin Müqaviləsi"nin tərəfdaşı olan ölkələrin, demək olar ki, hər biri dünyada böyük nüfuza və gücə malik ölkə idi. Həmin dövr üçün bu ölkələrin Azərbaycanın tərəfdaşına çevrilmələri təhlükəsizliyimizin təminatına səbəb olan amillərdəndir. Bu müqavilə Azərbaycanın dövlət təhlükəsizliyinin təminatçısına çevrildi. Nəinki regionda, qlobal miqyasda nəhəng neft kəməri olan Bakı-Tbilisi-Ceyhanın əsası qoyuldu. "Əsrin Müqaviləsi" sayəsində Azərbaycana birbaşa investisiyalar qoyuldu və ölkəmiz dünya bazarında iqtisadi müttəfiq kimi tanındı. Bununla yanaşı, Azərbaycan beynəlxalq hüquq müstəvisində iqtisadi maraqlarını və iqtisadi hüquqlarını qorumağa başladı. Ümummilli Lider fəaliyyəti ilə xalqımızın, dövlətimizin inkişafı və gələcəyi üçün işıqlı bir yol açdı. Bu yol sayəsində, Azərbaycan bu gün dünya dövlətləri sırasında öz nüfuzu ilə fərqlənir. Ulu Öndərin gərgin əməyi sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin olundu, müstəqil dövlətimizin ilk konstitusiyası yaradıldı, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin fəaliyyəti üçün əsaslı zəmin yaradıldı və Azərbaycan inkişaf yolunda əmin addımlarla irəliləməyə başladı.

### MÜASİR MÜSTƏQİL AZƏRBAYCAN İNKİŞAF YOLUNDA GƏLƏCƏYƏ ƏMİN ADDIMLARLA İRƏLİLƏYİR

Bu gün müstəqil Azərbaycan Ümummilli Liderin ideyaları Heydər Əliyev yolu ilə irəliləyərək, inkişaf edir. Məhz Heydər Əliyev siyasəti nəticəsində, Azərbaycan bugünkü inkişaf səviyyəsinə gəlib çatıb. Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyev siyasətini inkişaf etdirərək, ölkəmizə yeni-yeni nailiyyətlər qazandırır. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, dövlətçiliyini inkişaf etdirib, demokratik dəyərlərə yiyələnib və özünün liberal prinsiplərə əsaslanan iqtisadi modelini yaradıb. Respublikamız, eyni zamanda, bütün dünyaya nümunə ola biləcək yeni geoiqtisadi güc mərkəzi modelini yaradıb. Azərbaycan qarşıdakı onilliyin inkişaf istiqamətlərini müəyyənləşdirib. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da buna əyani sübutdur. İnkişaf konsepsiyası yeni onilliyin sosial-iqtisadi, ictimai-siyasi, elmi-mədəni və humanitar sektorlarında həyata keçirilməsi hədəf seçilən tədbirlərin müəyyən edilməsini nəzərdə tutur. Qarşıdakı dövrün layihələri ümidverici və irəliyə baxmaq üçün stimulverricidir. Təbii ki, bu nailiyyətlər Ulu Öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində qazanılıb. Dövlətimizin başçısının siyasəti xalqımızın mənafeyinə və xoş sabahına xidmət edir. Təsadüfi deyil ki, Azərbaycan dünya dövlətləri ilə iqtisadi, siyasi, mədəni və mənəvi əlaqələri inkişaf etdirir və öz sülhpərvər siyasəti ilə onlara nümunə göstərir. Müstəqil Azərbaycan bir çox beynəlxalq səviyyəli qlobal tədbirlərə ev sahibliyi edir. Çünki dünya dövlətləri ölkəmizi sülh, sabitlik və əmin-amanlıq məkanı kimi qəbul edir. Bu gün bütün dünya - beynəlxalq aləm Azərbaycanın uğurlarına şahidlik edir. Müasir müstəqil Azərbaycan inkişaf yolunda gələcəyə əmin addımlarla irəliləyir. Bütün sahələrdə dayanıqlı inkişafın əldə olunması üçün məqsədyönlü və ardıcıl işlər görülür. Bu inkişaf bütün bölgələrimizin simasında öz əksini tapır. Azərbaycanın rayonları, şəhər, kənd və qəsəbələri öz abadlığı, gözəlliyi və müasir görkəmi ilə fərqlənir.

Bunlarla yanaşı, insanların sosial durumu - həyat şəraiti, mütəmadi olaraq, yaxşılaşdırılır. Əldə edilən çoxsaylı nailiyyətlər sübut edir ki, Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın gələcəyi üçün nəzərdə tutduğu bütün işlər böyük uğurla həyata keçirilir. Bu gün hər bir vətəndaşımız ölkəmizin uğurlarından qürur duyur. Qazanılan nailiyyətlər xalqımızı daha böyük qələbələrə və zəfərlərə ruhlandırır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu islahatlar kursu bu gün uğurla davam etdirilir. İctimai, siyasi, iqtisadi və hüquqi islahatlar həm ayrı-ayrı sahələrin davamlı inkişafını təmin edir və həm də Azərbaycanın qüdrətli dövlət kimi tərəqqisini şərtləndirir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Qaradağlılar Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 50-ci ildönümünü qeyd ediblər

Dünən Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 50 illiyi münasibəti ilə Lökbatan qəsəbəsindəki Heydər Əliyev Mərkəzində Qaradağ rayon icra hakimiyyəti və YAP Qaradağ rayon təşkilatının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbər seçilməsinin 50-ci ildönümünə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Milli Məclisin deputatı Mixail Zabelin, iqtisad elmləri doktoru, professor Qəzənfər Abbasov, millət vəkili, YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

İlk öncə, tədbir iştirakçıları Ulu Öndərin abidəsi önünə güllər düzüb, dahi şəxsiyyətə hörmət və ehtiramlarını bildiriblər. Tədbiri giriş sözü ilə açan Qaradağ rayon icra hakimiyyətinin başçısı Süleyman Mikayılov 14 iyul 1969-cu il tarixinin əhəmiyyətindən danışaraq bildirib ki, müasir Azərbaycan tarixinin dönüş mərhələsini təşkil edən bu tarix Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir dövrün başlanğıc mərhələsidir: "Ümummilli Lider Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə Azərbaycanın gələcək inkişafının fundamental-strateji istiqamətlərini müəyyənləşdirdi".

S.Mikayılov onu da vurğulayıb ki, Azərbaycan xalqının demokratik-hüquqi dövlətdə yaşamaq idealının real və dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi də çağdaş tariximizin unudulmaz dühası - Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Millət vəkili Mixail Zabelin öz çıxışında bu gün bütün sahələrdə əldə edilən uğurların hər birinin qayəsində Ulu Öndərin ideyalarının dayandığını bildirdi. Qeyd etdi ki, dövlət başçısı İlham Əliyev tərəfindən davam etdirilən bu siyasət bundan sonra da ölkəmizi daha böyük uğurlara sövq edəcək.

Tədbirdə çıxış edən iqtisad elmləri doktoru, professor Qəzənfər Abbasov Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini söyləyib. Millət vəkili, YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov Ulu Öndərin siyasi fəaliyyəti haqqında danışaraq, 1969-cu il 14 iyul tarixinin Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafının başlanğıc nöqtəsi olduğunu bildirib. A.Hüseynov həmin dövrdə əldə olunmuş nailiyyətlərin Azərbaycanın müstəqillik dönəmində baza rolunu oynadığını söyləyib.

Tədbirdə Qaradağ rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Munis Bayramov öz çıxışında Ümummilli Lider Heydər Əliyevin ali idarəçilik keyfiyyətlərindən və liderlik xüsusiyyətlərindən bəhs edib.

*RƏFİQƏ HÜSEYNOVA*

# UNEC-də "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" adlı monoqrafiyanın təqdimatı keçirilib




UNEC-də Azərbaycan Dövlət İqtisad Universitetinin professorları tərəfindən hazırlanan və Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsinin 50-ci və anadan olmasının 96-cı ildönümünə həsr olunan "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" adlı monoqrafiyanın təqdimatı keçirilib. UNEC ilə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə birgə keçirilən tədbirdə UNEC-in rektoru, professor Ədalət Muradov və universitetin professor-müəllim heyəti ilə yanaşı, millət vəkilləri, dövlət rəsmiləri və digər qonaqlar iştirak ediblər.

UNEC-in rektoru, professor Ədalət Muradov müstəqillik illərində ölkəmizdə sosial-iqtisadi inkişaf strategiyası sahəsində əldə olunan uğurların məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib, bu gün də həmin strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyində qarşıya qoyduğu vəzifələrdən söz açan rektor, ulu öndərin tövsiyələrinin UNEC-in inkişaf strategiyasının prioritet istiqamətləri kimi müəyyən olunduğunu qeyd edib. UNEC-in 90 illik yubileyində ulu öndərin verdiyi tapşırıqlara və bu tapşırıqların icrasına həsr olunan yeni kitabın hazırlanacağını deyib. Ə.Muradov monoqrafiyanın əhəmiyyətindən söz açaraq, ümummilli lider Heydər Əliyevin zəngin irsinin hələ uzun illər tədqiq ediləcəyini vurğulayıb. Ulu öndərinin irisinin öyrənilməsi və gələcək nəsillərə ötürülməsi missiyasının UNEC-in öz üzərinə götürdüyünü bildirib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafındakı tarixi xidmətlərindən söz açıb. UNEC professorlarının hazırladığı dəyərli monoqrafiyada ulu öndərin iqtisadi inkişaf strategiyasının bütün məqamlarının dərin təhlil olunduğunu bildirib.

AMEA-nın müxbir üzvü, İqtisadiyyat İnstitutunun şöbə müdiri, professor Akif Musayev Heydər Əliyevin müasir Azərbaycanın sosial-iqtisadi inkişafı, maliyyə institutlarının formalaşdırılması, ölkəmizdə tədris-təlim texnologiyalarının tətbiqi, xalq təsərrüfatının müxtəlif sahələrində və funksional bölmələrində iqtisadi islahatların aparılması, əhalinin sosial müdafiəsi, optimal vergi siyasəti, xarici iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində gördüyü işlərdən danışıb. Monoqrafiyada ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasını əks etdirən və mühüm faktlara əsaslanan məqalələrin yer aldığını vurğulayıb.

UNEC-in kafedra müdiri, professor Məhiş Əhmədov monoqrafiyada Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyasının mahiyyəti, ümumi və xarakterik cəhətləri, prioritetlərinin sistemli şəkildə təhlil olunduğunu bildirib. Monoqrafiyanın müasir Azərbaycanın davamlı və dinamik sosial-iqtisadi inkişafının mənbələrini, hərəkətverici qüvvələrini daha dərindən və aydın dərk etməyə imkan verdiyini diqqətə çatdırıb.

Tədbirdə AMEA-nın müşaviri, akademik Əli Abbasov ulu öndər Heydər Əliyevin elm və təhsilin, bilik və informasiya resurslarının inkişafında, eləcə də insan kapitalının formalaşmasındakı rolundan bəhs edib. UNEC professorlarının hazırladıqları monoqrafiyada iqtisadiyyatın bütün sahələri ilə yanaşı, bilik və informasiya resurslarına əsaslanan yeni iqtisadiyyatın qurulması barədə məqalələrin yer aldığını, həmçinin çox mühüm nəticələr əldə olunduğunu qeyd edib. Akademik monoqrafiyanı ulu öndər Heydər Əliyevin sosial iqtisadi siyasətinə verilən qiymət kimi dəyərləndirib. Tədbirdə çıxış edən millət vəkilləri Vahid Əhmədov, Rüfət Quliyev, UNEC-in professoru Arif Şəkərəliyev ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının əhəmiyyətindən danışıblar. UNEC alimlərinin hazırladığı monoqrafiyanın bu strategiyanın təbliğ olunması istiqamətində dəyərli töhfə olacağını deyiblər.

# "CavanNar" tarifinə qoşul, 10 GB internet əldə et!

Azərbaycan mobil rabitə bazarında internet istifadəçiləri üçün sərfəli tarif sayılan "CavanNar"-a qoşulan abunəçilərin sayı sürətlə artmaqdadır. Belə ki, ikiqat internetdən yararlanmaq imkanı verən "CavanNar" istifadəçilərinin sayı son 1 ayda 18% artıb. Bununla da martın ortasından abunəçilərin ixtiyarına verilən "CavanNar" paketlərindən istifadə edənlərin sayı 50 minə yaxındır.

Qeyd edək ki, "CavanNar"-a qoşulmaqla "İnstagram", "Facebook", "Twitter" və "VKontakte" kimi sosial şəbəkə istifadəçiləri həm daha çox internetdən istifadə edə, həm də daha çox ünsiyyət qura bilirlər. "CavanNar" tarifi 2 müxtəlif paketdə təqdim olunur. "CavanNar 9"-a qoşulmaq istəyənlər aylıq 9 AZN ödəməklə 5 GB internet, 5GB sosial şəbəkə və 500 tarifdaxili dəqiqə əldə edə bilir. "CavanNar 6" isə istifadəçilərə aylıq 6 AZN ödəməklə 2 GB internet, 2GB sosial şəbəkə və 200 dəqiqə tarifdaxili danışıq verir. "CavanNar" tarifinə istənilən yaş qrupuna aid insanlar qoşula bilərlər. "CavanNar 9"-a qoşulmaq üçün "C9" yazıb 777-yə göndərmək və ya *777#9#YES yığmaq lazımdır. "CavanNar 6"-ya qoşulmaq üçün isə "C6" yazıb 777-yə göndərmək və ya *777#6#YES yığmaq kifayətdir.

Qeyd edək ki, "CavanNar" tarifinə qoşulan abunəçilər hazırda ölkədə ən geniş şəbəkələrindən birinə malik olan "Nar"-ın 4G şəbəkəsindən istifadə etməklə tam keyfiyyətdə yararlana bilərlər. "CavanNar" tarifi haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7800-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.



# Erkən evlilik gender bərabərsizliyi və təhsil problemi

***Dünyada erkən evliliklərin geniş yayıldığı ərazilərə diqqət yetirsək görərik ki, onlar daha çox modernləşmə proseslərindən kənarda qalan və gender bərabərsizliyinin olduğu ərazilərdə daha yüksək səviyyədədir. Rauf Məmmədov yazır: "Ölkələrə görə gender bərabərliyinin ən aşağı səviyyədə olduğu bölgələr, göründüyü kimi, Afrika, Cənubi Amerika və Mərkəzi və Cənubi Asiyadır. Gender bərabərliyinin aşağı səviyyədə olduğu ərazilər ilə erkən evliliklərin geniş yayıldığı ərazilər təqribən üst-üstə düşür. Bu müqayisə, bizə deməyə əsas verir ki, gender bərabərsizliyi ilə erkən evlilik məsələləri bir-biri ilə birbaşa bağlıdırlar.***

Bu regionlarda müxtəlif din, irq və etnosa mənsub olan insanlar yaşayırlar. Bu baxımdan, erkən evlilik və gender bərabərsizliyi məsələsini, konkret olaraq, hər hansı bir dinə, irqə və etnosa aid etmək yanlış olardı. Gender bərabərsizliyinin təməlində dayanan ənənəvi sosial-iqtisadi və siyasi strukturlar və şüur formalarıdır. Bu, adətən, qapalı və inkişaf etməyən cəmiyyətlərdə özünü büruzə verir.

Beynəlxalq gender bərabərsizliyi indeksinə görə təhsil, iqtisadiyyat, siyasət, sağlamlıq və uzunömürlülük sahəsində gender bərabərliyinə nail olan ölkələr inkişaf etmiş ölkələr hesab edilir. Bu şərtlərə əməl olunan ölkələrdə erkən evliliyin və digər gender problemlərinin genişlənməsi mümkün deyildir.

Erkən evlilik məsələsi, əsasən, qızların təhsil almaq, iqtisadi və siyasi həyatda fəal iştirak etmək, sağlamlığını qorumaq problemlərinin olduğu cəmiyyətlərdə daha çox yayılır. Çünki bu şərtlərin inkişaf etmədiyi cəmiyyətlərdə qadınlar sosial statusdan məhrum olur və nəticədə, yalnız ev-ailə işlərinə aid olan məxluqlar kimi diskriminasiya olunaraq, erkən evliliyə məruz qalırlar. Əgər cəmiyyətdə qadının fiziki və intellektual əməyinə ehtiyac yoxdursa, o zaman, onun təhsil alması da öz mənasını itirir. Belə cəmiyyətlərdə, qızlar öz ata evində iqtisadi yük (qız yükü-duz yükü), ər evində isə, uşaq dünyaya gətirən və onları böyütməkdən başqa, heç bir işə yaramayan məxluq kimi qiymətləndirilirlər.

Araşdırmaların nəticəsi göstərir ki, erkən evliliklərin əsas səbəbi gender bərabərsizliyidir. Bu, özünü ailələrdə cinslərə görə ayrı-seçkilikdə büruzə verir. Qızlarını erkən evliliyə vadar edən valideynlərin beyinlərində formalaşmış stereotiplər bu davranışları tənzimləyir. Maraqlıdır ki, əksər hallarda, erkən evliliyi dəstəkləyən ailənin öz ənənələrində erkən evlilik halları mövcud olur. Bunun fəsadları ilə üzləşən ailələr dərin peşmançılıq içində olurlar. Bu baxımdan, valideynlərin məlumatsızlığı, problemi dərindən dərk etməmələri onların özləri və qızları üçün baha başa gəlir."

Dünya Səhiyyə Təşkilatı (DST) erkən evliliklərin qarşısını almaq üçün, qızların təhsilinə diqqətin artırılmasını, minimal yaş həddinin hüquqi yolla təmin edilməsini, erkən evlilik risklərinin valideynlərə çatdırılmasını, onu iqtisadi çıxış yolu hesab edən ailələrə maddi dəstək olunmasını məqsədəuyğun hesab edir. Çünki araşdırmalar göstərir ki, problemin əsas həll yolu, kompleks şəkildə qadınlara maddi dəstəkdən, təhsil və işləmək imkanlarını genişləndirməkdən ibarətdir.

Müəllifin fikrincə, Azərbaycanın Gender Bərabərsizliyi İndeksi (GII 0.314) qlobal göstəricidən (GII 0.492) aşağıdır. Ancaq bu göstərici əksər dünya ölkələrindən yüksəkdir. Çünki Azərbaycanda gender bərabərliyi siyasəti 1918-ci ildən, AXC dövründən başlayaraq, bu günədək davam etmişdir. Azərbaycan, SSRİ dövründə, gender bərabərliyi və modernləşmə istiqamətində böyük irəliləyişlər əldə etmişdir. Lakin son dövrdə mətbuatda tez-tez erkən evlilik, selektiv abortlar və məişət zorakılığı kimi gender diskriminasiyası hallarının işıqlandırılması göstərir ki, bu proses sona çatmamışdır. Bəzi bölgələrin kənd yerlərində gender bərabərliyi və modernləşmə proseslərinin intensivləşdirilməsinə ehtiyac vardır. Bu məsələdə yerli idarəetmə orqanlarının məsuliyyəti daha böyükdür. Çünki onların bəziləri ənənəvi feodal idarəetmə üsulları ilə idarə etdikləri üçün, gender bərabərsizliyi mühitinin formalaşmasında birbaşa iştirak edirlər. Bəzən belə bir sosial sistemin formalaşması onların maraqlarına xidmət edir. Çünki hər hansı bir kəndi və ya bölgəni, oranın nüfuzlu "ağsaqqalları" və ruhaniləri vasitəsilə nəzarətdə saxlamaq daha asandır. "Ağsaqqal" və ruhanilərin mənafelərinin təmin olunduğu bu sistemdə gender bərabərliyi və modernləşmə proseslərinin inkişafı mümkün deyildir.

Gender bərabərliyinin mühüm amillərindən biri də, qadınların yüksək və keyfiyyətli təhsil almaq imkanlarının olmamasıdır. O cəmiyyətdə ki, qadınların təhsil almalarına əhəmiyyət verilmir, deməli, o cəmiyyətdə qadınların sosial statusuna qarşı məhdudiyyətlər vardır. Yaxud qadınların təhsilinin müəyyən sahələr üzrə istiqamətlənmələri, onu göstərir ki, ictimai şüur qadınların müəyyən sahələrdə fəallaşmalarını istəmir və onların funksiyalarını müəyyən çərçivə daxilində məhdudlaşdırmaq istəyir. Qadınların gender rollarını ailə-ev mühitinə sıxışdıran amillər, onun erkən evlilik, məişət zorakılığı kimi hüquq pozuntusuna məruz qoyurlar.

Təhsildə gender ayrı-seçkiliyi səviyyəsinə diqqət yetirsək, görərik ki, qızların təhsil hüquqları dünyada gender bərabərliyinin, ana ölümlərinin, erkən evliliklərin yüksək səviyyədə olduğu regionlarda daha çox pozulur. Deməli, bu problemlərin bir-biri ilə birbaşa əlaqəsi vardır.

R.Məmmədov yazır: "Dünyada statistik araşdırmaların müqayisəli təhlili bizə, bir daha sübut edir ki, qadın və uşaq hüquqlarının pozulduğu ərazilərdə yoxsulluq, aclıq, köləlik, ölüm, gerilik, əsarət, zülm, savadsızlıq və cəhalət hökm sürür. Bütün bu problemlərin həlli və insan hüquqlarının təmin olunmasından keçir. Çünki bu hüquqların təmin olunmadığı cəmiyyətdə insan kölələşərək, bütün potensal imkanlarını itirir və o, bir əşya kimi alınıb-satılır (erkən evlilikdə olduğu kimi). Bu isə, bütün resursların başında gələn insan resurslarını məhv edir.

Yoxsul və çoxuşaqlı ailələrdə erkən evliliklər daha çox müşahidə olunur. Belə ailələrin uşaqlarına, xüsusilə, qızlara təhsil almaları üçün dəstək olmaq və bu ailələrə maddi dəstək vermək, erkən evliliyin qarşısını alır. Bu istiqamətdə beynəlxalq təşkilatlar Malavi, Hindistan ərazilərində təcrübə aparmış və yaxşı nəticələr əldə etmişlər. Yəni müəyyən bir bölgədə həmin ailələrə, müəyyən bir müddət ərzində, edilən kontrollu dəstəklər nəticəsində, erkən evlilik səviyyəsi xeyli azalmışdır.

Azərbaycanda erkən evlilikdə olan qız və oğlanların səviyyəsinə diqqət yetirsək, görərik ki, həm oğlanlar (2%), həm də qızlar (6%) erkən evlilikdə tam orta təhsil imkanlarından məhrumdurlar. Həm oğlanlar (2%), həm də qızlar (12%) arasında ali təhsilini, məlum səbəblərdən, başa vura bilməyənlər də çoxdur. Qızların erkən ərə verildiyi üçün, onların çoxu 6-7-ci sinifdən məktəbə buraxılmır. Buna görə də, bəzilərinin orta və natamam orta təhsil imkanları da əllərindən alınır.

Qızların təhsil səviyyəsi nə qədər yüksəkdirsə, evlənmə müddəti də bir o qədər gec olur. Yaxud qızların təhsil səviyyəsi nə qədər aşağıdırsa, evlənmə müddəti də bir o qədər tez olur. Bu, bir qanunuyğunluq olmasa da, statistika bu halın dünyada geniş yayıldığını göstərir.

Tez ərə gedən qızlar doğulan uşağın qayğısına qalmaq üçün təhsilini davam etdirə bilmir və təhsildən yayınmaq məcburiyyətində qalır. Hətta bəzi konservativ valideynlər qızlarını məktəbdən ayıraraq, onu evdə erkən evlilik üçün saxlayırlar. Bu isə, qadının iqtisadi müstəqilliyini məhdudlaşdırır və o öz ərindən maddi baxımdan tam asılı vəziyyətdə qalır. Əgər onun əri vəfat edərsə və ya onu boşayarsa, qadın özünün və uşaqlarının maddi ehtiyaclarını təmin etməkdə çətinlik çəkəcəkdir. Çünki o, işləmək üçün bir bilik və sənətə malik deyildir."

Bununla bağlı pedaqoqun (Brilyant Hacıyeva) dediklərini diqqətə çatdıraq: "Dərs dediyim 7-ci sinifdə əlaçı, nümunəvi, aktiv bir şagirdim var idi. Son zamanlar onda geriləmələr müşahidə etdim. Sonra eşitdim ki, onun nişanı olub. 9-cu sinifdən isə məktəbdən çıxardılar. İllərdir əziyyət çəkdiyim yetirməmin bəhrəsini görmədən tədrisdən belə uzaqlaşması məni üzürdü. Sonralar onun ailə həyatının da yarımçıq qaldığının şahidi oldum".

Araşdırmalar göstərir ki, erkən yaşda ərə gedən qızların yalnız 2%-i təhsilini davam etdirir.

Bu istiqamətdə aparılan araşdırmalara görə, Azərbaycanın cənub rayonlarında azyaşlı qızların ərə verilməsi halları daha çoxdur. Bəzi rayonların əksər məktəblərində 14-15 yaşında qızlar dərsə gəlmirlər. Onlar ya ərə verilib, ya da nişanlıları onların təhsillərini davam etdirməyə icazə vermirlər. Ərli və nişanlı qızların məktəbə getmələrinə qısqanclıqla yanaşılır. Bu cür insanların şüurunda belə bir yanlış stereotip yerləşib ki, qızlar nə qədər evdən çölə çıxmasalar, bir o qədər iffətli olarlar. Azyaşlı qızın təfəkkürü inkişaf etmədiyindən, hansı seçimin düzgün olması barədə qərar verə bilmir.

19 yaşlı Fidanın həyat hekayəsində ibrətverici məqamlar çoxdur. O öz ailəsini yeni həyat əldə etmək üçün tərk edib. O deyir: "12 yaşında olarkən, ilk sərt qayda ilə üzləşdim, artıq böyük qız olduğum üçün yay-qış fəsillərində küçəyə tək çıxa bilməzdim. Mobil telefon əldə etdikdən sonra atam onu yoxlayır, heç bir səbəb olmadan, məktəb müəllimələrimə zəng edib, vaxtında gəlib-getməyim haqda sorğu-sual edirdi. Həyatıma bu dərəcədə qarışılmasına ilk dəfə etiraz etdikdə, şillə ilə üzləşdim, ikinci dəfə isə, artıq məişət əşyaları ilə döyüldüm".

R.Məmmədov göstərir ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) məlumatlarına görə, 2014-cü ildə 9-cu siniflər üzrə buraxılış imtahanında iştirak edən şagirdlərin (cari ilin məzunları) 53,67%-ni (60042 nəfər) oğlanlar, 46,33%-ni (51826 nəfər) qızlar təşkil edib. 11-ci siniflər üzrə buraxılış imtahanında isə, mənzərə bir qədər fərqli olub və imtahanda iştirak edən şagirdlərin 55,96%-ni (46501 nəfər) oğlanlar, 44,04%-ni (36592 nəfər) qızlar təşkil edib. Qeyd olunub ki, ölkə üzrə hər iki imtahanda oğlan və qız şagirdlərin nisbəti bir-birinə yaxın olsa da, ayrı-ayrı bölgələr üzrə bu göstəricilər arasında kəskin fərqlər müşahidə olunur.

Cənub rayonlarında (Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad və Masallı rayonları) 9-cu sinif şagirdlərinin 47,73 %-ni qızlar təşkil edibsə, 11-ci sinif şagirdləri arasında bu göstərici 39,04%-ə bərabər olub. 11-ci sinifdə şagirdlərin sayında qızların payı kəskin şəkildə azalıb. Cənub rayonlarında qızların təhsildə sayının azalmasının əsas səbəbi, bu bölgə üçün xarakterik olan erkən evlilik məsələsi ilə bağlıdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs






## Qusarda "Azərbaycana həsr olunmuş ömür" adlı konfrans keçirilib



***YAP Qusar rayon təşkilatı və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibəti ilə "Azərbaycana həsr olunmuş ömür" adlı konfrans keçirilib. Tədbiri giriş sözü ilə YAP Siyasi Şuranın üzvü, rayon təşkilatının sədri David İbramxəlilov açaraq bildirib ki, 1969-cu ilin 14 iyulu Azərbaycan tarixində çox əlamətdar tarixlərdən biridir:***

"Azərbaycanın Memarı və Qurucusu Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə Azərbaycanın Mərkəzi Komitəsinə Birinci Katib seçildiyi zaman respublikanı durğunluq dövründən çıxararaq, bütün sahələrdə inkişaf yolunu müəyyənləşdirdi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə respublikamızın bütün sahələrdəki qüdrətli inkişafı və bu inkişafın nəticələri ölkəmizin və xalqımızın gələcək taleyinə çox yüksək təsir göstərib."Rayon təşkilat sədri bildirib ki, Ulu Öndərin rəhbərliyi ilə XX əsrin 70-ci illərindən başlayaraq, ölkəmizdə elə bir tarixi bünövrə yaradıldı ki, onun möhkəm dayaqları üzərində gələcəkdə müstəqil Azərbaycanın qurulması mümkün oldu: "Ümummilli Liderin təlatümlərdən çıxararaq, qurub-yaratdığı Azərbaycan müasir dövrümüzdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bütün dünyaya möhtəşəm yüksəliş dinamikası nümayiş etdirir."

Tədbirdə çıxış edən rayon Ağsaqqallar Şurasının sədri Vahid Mehtixanov Ulu Öndər Heydər Əliyevin XX əsrin Azərbaycana, xalqımıza və dünyaya bəxş etdiyi ən böyük Vətəndaş, Dahi Şəxsiyyət, Müdrik Siyasi Xadim, Əbədi Lider olduğunu vurğulayaraq, Ulu Öndərin uzaqgörən siyasətinə nəzər salıb.

Tədbirdə Heydər Əliyev Mərkəzinin baş fond mühafizi Lalə Sadirova və elmi işçisi Fidan Kazımzadənin hazırladıqları video-təqdimatlara baxış keçirilib.

Tədbirin sonunda Heydər Əliyev Mərkəzinin direktoru Neva Abdurahmanovanın Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunmuş "Azərbaycançılıq ideologiyası multikultural və etik-əxlaqı dəyərlər sistemində" ilk kitabı təqdim olunub.

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

## "Heydər Əliyev Epoxası-50"

### *YAP Tərtər rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin ildönümünü qeyd edib*



***Ulu Öndərimiz Heydər Əlirza oğlu Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 50 illiyi münasibəti ilə "Heydər Əliyev Epoxası-50" mövzusunda tədbir keçirilib.***

Tədbirdə YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov "Heydər Əliyev Epoxası-50" mövzusu ilə çıxış edərək bildirib ki, 50 il əvvəl - 1969-cu il iyul ayının 14-də Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Plenumunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilib: "Həmin gündən etibarən Azərbaycanın inkişafında böyük dönüş və tərəqqi başlandı. Ulu Öndər Heydər Əliyevin böyük səyləri, vətənə və xalqa məhəbbəti, təşkilatçılıq qabiliyyəti, mövcud problemləri dərindən öyrənərək, onların aradan qaldırılmasını təmin etmək bacarığı öz bəhrəsini verdi. Keçmiş Sovetlər İttifaqının geridə qalmış aqrar respublikası olan Azərbaycan sənaye və kənd təsərrüfatının geniş inkişaf etdiyi bir qabaqcıl respublikaya çevrildi, yüzlərlə iri sənaye müəssisəsi, sosial obyektlər inşa edildi, əhalinin şəraitinin yaxşılaşdırılması üçün genişmiqyaslı mənzil tikintisi layihələri həyata keçirildi. Görülən bütün işlərin ilhamçısı və onların başında duran isə, məhz xalqımızın böyük oğlu Heydər Əliyev oldu".

R.Şabanov onu da qeyd edib ki, 1993-cü ildə xalqın tələbi və təkidi ilə ikinci dəfə Azərbaycanda hakimiyyətə gəldikdən sonra Heydər Əliyev Azərbaycanı parçalanmaqdan, məhv olmaqdan qorudu və xalqımızın xilaskarına çevrildi. Bu gün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Toplantıda Heydər Əliyev Mərkəzinin əməkdaşı İradə Əkbərli, Qapanlı kənd tam orta məktəbinin müəllimi Sadiq Məhəmmədov, Seydimli kənd tam orta məktəbinin müəllimi Aynurə Vəliyeva, YAP rayon təşkilatının məsul işçisi Samirə Zeynalova, Heydər Əliyev Mərkəzinin əməkdaşı Jalə Əlizadə və başqaları Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyində çalışdığı illər ərzindəki fəaliyyəti, gördüyü işlərdən danışaraq, vurğulayıblar ki, Tərtər rayonunun ağsaqqaları, veteranları, digər ictimai təşkilatların üzvləri ölkə Prezidenti, Ulu Öndərimizin layiqli davamçısı İlham Əliyevin Azərbaycanın inkişaf və tərəqqisinin günbəgün artması, onun qüdrətli və zəngin bir dövlətə çevrilməsi və ən başlıcası isə itirilmiş torpaqlarımızın geri qaytarılması istiqamətində apardığı işləri bəyənir və bu işlərdə Ona hər zaman dəstək olacaqlar.

**R.KAMALQIZI**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**